RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 275 (8591) ÇƏRŞƏNBƏ AXŞAMI, 29 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qələbəmizin memarı

## Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasını İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirir

Başa çatmaqda olan 2020-ci il Azərbaycan tarixinin ən əlamətdar dövrlərindən biri kimi yadda qaldı. Bu il ordumuz 30 ilə yaxın idi ki, işğal altında olan torpaqlarımızı azad edərək hər bir azərbaycanlının böyük səbirsizliklə gözlədiyi qələbənin sevincini xalqımıza yaşatdı. Artıq Dağlıq Qarabağ problemi yoxdur və Azərbaycanın bu tarixi ərazisində ikinci erməni dövləti yaratmaq iddialarına birdəfəlik son qoyulub.

### Vətənpərvərliyin, qətiyyətin və yenilməzliyin təcəssümü

Xalqımızın intizarında olduğu bu tarixi reallığın müəllifi isə Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Çünki məhz İlham Əliyevin ötən 17 ildə həyata keçirdiyi kompleks inkişaf siyasəti, respublikamızın yüksəlişi bizi sürətlə bu qələbəyə yaxınlaşdırdı. Bu siyasət hər bir uğuru ilə torpaqlarımızın azad edilməsi üçün tarixi şəraitin formalaşmasını təmin etdi, ərazi bütövlüyümüzün bərpa olunmasının konturlarını cızdı. İlham Əliyev Ali Baş Komandan kimi ordumuzu qarşıda dayanan bütün vəzifələri yerinə yetirməyə qadir mükəmməl hərbi gücə çevirdi, ötən illər ərzində siyasi-diplomatik ustalıqla davamlı şəkildə Ermənistanın ifşasına nail oldu.

Vətən müharibəsinin 44 günü ərzində isə Azərbaycan xalqı bir daha öz rəhbərinin vətənpərvərliyinin, qətiyyətinin, yenilməzliyinin şahidi oldu. Məhz bu amillər xalqımızı bir amal uğrunda tarixdə görünməmiş dərəcədə həmrəy etdi. Məhz İlham Əliyevin torpaqlarımızın azadlığı uğrunda ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi əzmkarlığı hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi.

Azərbaycan ictimaiyyəti hər gün İlham Əliyevin qələbə xəbərlərini gözlədi və dövlət başçısının hər müjdəsini bayram etdi. Ali Baş Komandanın xalqa hər bir müraciəti tarixi hadisəyə çevrilərək xalqımızı daha da ruhlandırdı, Ermənistan üzərində tam qələbəni sürətlə yaxınlaşdırdı.

### Prezidentin fəaliyyətinin bütün istiqamətləri təqdir olunur

Azərbaycan cəmiyyəti haqlı olaraq bu qələbənin qazanılmasında Prezident, Ali Baş Komandan İlham Əliyevin tarixi rolunu yüksək qiymətləndirir. Sosial Tədqiqatlar Mərkəzi bu günlərdə açıqladığı "Prezidentin fəaliyyəti ictimai rəydə: Vətən müharibəsi və 2020-ci ilin yekunları" adlı rəy sorğusunun nəticələri də bunu təsdiqləyir.

Sorğuda respondentlərə Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi, Qarabağın hərbi yolla azad edilməsinə inamın əsasında duran amillərin öyrənilməsi, Vətən müharibəsində Qələbəmizi təmin edən əsas hansı amillərin olması, müharibə və pandemiya dövründə əhalinin hiss etdiyi əsas təhlükələrin öyrənilməsi və s. istiqamətlər üzrə suallar ünvanlanıb.

Respondentlərin 96,4 faizi Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını 2020-ci ildə Azərbaycan Prezidentinin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirib. 75,2 faiz respondent dövlət başçısının müharibə veteranları və yaralı hərbçilərlə görüşməsini və işğaldan azad olunmuş torpaqlara səfərlərini təqdir edib. Rəyi öyrənilənlərin 65,6 faizi Ali Baş Komandan İlham Əliyevin xalqa daim qələbə müraciətləri etməsini, 62,1 faizi xarici kütləvi informasiya vasitələrinə müsahibələrini və hücum diplomatiyasını 2020-ci ildəki fəaliyyətləri sırasında dəyərləndirib.

Ümumiyyətlə, sorğuda iştirak edənlərin əhəmiyyətli hissəsi əvvəlki dövrlərlə müqayisədə müharibə dövründə ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib. Ölkəmizin beynəlxalq informasiya məkanında mövqeyini çox yaxşı qiymətləndirən 78,6 faiz respondentin 66,5 faizi Prezidentin xarici mediaya müsahibələrini müntəzəm olaraq izlədiklərini bildirib. Dövlət başçısının xalqa müraciətlərini respondentlərin 72,2 faizi müntəzəm izləyib.

Ardı 2-ci səh.

# Yol infrastrukturu layihələrinin genişləndirilməsi, müasirləşdirilməsi istiqamətində atılan növbəti mühüm addım



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması çərçivəsində görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə mühüm sosial və iqtisadi əhəmiyyəti ilə seçilən infrastruktur layihələri həyata keçirilir. Bunlar ümumilikdə ölkəmizin iqtisadi potensialını möhkəmləndirir, əhalinin sosial vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlərə böyük töhfə verir. Dövlət başçısının sərəncam və tapşırıqlarına uyğun inşa olunan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil magistralı yol infrastrukturu layihələrinin genişlənməsi, onların daha da müasirləşdirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu layihə çərçivəsində yolun 7,5 kilometrliyindən Masazır dairəsinədək olan hissəsinin yenidən qurulması başa çatıb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov işlərin icrası ilə bağlı dövlət başçısına məlumat verdi. Layihə çərçivəsində Xırdalan dairəsinin altından keçən avtomobil tuneli genişləndirilib. Hər bir istiqamət üzrə əlavə tunellər inşa edilib. Bundan başqa, yenidənqurma işləri zamanı Xırdalan dairəsinə qalxan və düşən hissələrdə iki hərəkət zolaqlı yol inşa olunub.

Ardı 2-ci səh.





## İtaliya Qarabağda yeni infrastruktur qurmaqda yaxın köməkçimizdir

Prezident İlham Əliyev bəyan edib ki, Azərbaycan işğaldan azad olunan ərazilərində dost ölkələrin şirkətləri ilə birlikdə çalışacaq. Bu ölkələr sırasında İtaliyanın özünəməxsus yeri var.

Azərbaycan və İtaliya arasında istər siyasi, istərsə də iqtisadi münasibətlər yüksək səviyyədədir. Son illərdə hər iki ölkənin dövlət başçılarının və nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bunun bariz nümunəsidir. Bu səfərlər zamanı bir çox önəmli sənədlər imzalanıb. Onların arasında Çoxölçülü Strateji Tərəfdaşlıq haqqında sənəd xüsusi əhəmiyyətə malikdir. Sənəd iki ölkə arasında strateji tərəfdaşlığın daha yüksək səviyyəyə çatdırılmasına xidmət edir.

Ardı 4-cü səh.

# Büdcə zərfinə daxil olan məsələlər ikinci oxunuşda qəbul olundu

Dekabrın 28-də Milli Məclisin növbəti iclası keçirildi. Spiker Sahibə Qafarova iclası açaraq bildirdi ki, gündəliyə 12 məsələ daxil edilib. Gündəliyin 9 məsələsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan sənədlər idi.



İlk olaraq "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, 2021-ci ilin büdcəsində büdcə gəlirləri 1 milyard 303 milyon manat artırılaraq 25 milyard 427 milyon manata, xərcləri isə 1 milyard 50 milyon manat artırılaraq 28 milyard 543 milyon manata çatdırılıb. Büdcə kəsirinin 3 milyard 116 milyon manat, inflyasiyanın 3 faiz, ÜDM artımının gələn il üçün 3,4 faiz, neftin qiymətinin isə 40 dollar olması nəzərdə tutulub. Ölkənin müdafiə potensialının gücləndirilməsi və Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması üçün ayrılan xərclər 500 milyon manat, sosialyönümlü xərclər isə 563 milyon manat artırılıb. Hər iki istiqamətdə xərclər Prezident İlham Əliyevin bu sahələrdə apardığı xüsusi siyasətin maliyyə təminatını təmin etmək məqsədi daşıyır.

Qeyd olundu ki, layihənin Milli Məclisin iclasında birinci oxunuşda müzakirələri zamanı 36 deputat çıxış edib, komitədə həmin çıxışlarda qaldırılan məsələlər müzakirə edilib.

Deputatlardan Emin Hacıyev, Tahir Kərimli, Fəzail Ağamalı büdcə layihəsinin ikinci oxunuşu barədə fikirlərini bildirdilər. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsini ikinci oxunuşda müzakirəyə təqdim etdi. Diqqətə çatdırdı ki, layihənin birinci oxunuşda müzakirəsi zamanı 7 deputat çıxış edərək dəyərli təkliflər verib. Həmin təkliflər komitədə müzakirə olunub və əlaqədar qurumlara məlumat verilib. Gələcəkdə onların mümkün olanları nəzərə alınacaq.

Ardı 3-cü səh.




## Müsbət dinamika arxayınlıq yaratmamalıdır

2020-ci il başlayandan bəşəriyyət gözəgörünməz virusla, koronavirusla, sözün əsl mənasında, savaşa atılıb. Dünyanın gərdişini, insan oğlunun əsrlərdir alışdığı həyat tərzini dəyişən qlobal pandemiyaya qarşı mübarizəyə bütün dövlətlər aylardır səfərbər olub.

Amma təəssüf ki, hələ də bu savaşda COVID-19 adlı bəla irəlidədir. Bütün səylər infeksiya ilə mübarizəyə və profilaktika tədbirlərinə yönəlsə də, pandemiyanın qarşısını almaq hələ də mümkün deyil. Çinin Uhan şəhərində "ayaq açıb" planetin 213 ölkə və bölgəsinə yayılan koronavirusa yoluxanların ümumi sayı 81 milyon nəferi ötüb, vəfat edənlərin sayı isə 2 milyona yaxınlaşır.

Ardı 4-cü səh.

# Yol infrastrukturu layihələrinin genişləndirilməsi, müasirləşdirilməsi istiqamətində atılan növbəti mühüm addım





*Əvvəli 1-ci səh.*

Görülən işlər bu istiqamətdə yaranan tıxacların qarşısının alınmasında, avtomobillərin hərəkətinin intensivliyinin, sürücülərin və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Layihəyə uyğun olaraq Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun Xırdalan dairəsi yaxınlığında yeni dəmir yolu körpüsü də tikilib.

Qeyd edək ki, bundan əvvəlki körpünün texniki göstəriciləri avtomobillərin normal və təhlükəsiz hərəkətinə mane olurdu. Ona görə də həmin körpünün sökülərək əvəzində yeni, müasir standartlara cavab verən körpünün inşası ilə bağlı qərar qəbul edilmişdi. Layihənin icrası şəhərin bu hissəsində tıxacların qarşısının alınmasında, qatarların hərəkətinin təhlükəsizliyində böyük rol oynayacaq.

Prezident İlham Əliyev "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun Xızı rayonunun Yaşma və Giləzi qəsəbələri arasında yerləşən 30 kilometrlik birinci hissəsinin açılışında da iştirak etdi.

Uzunluğu 150 kilometr olan yeni yol 4 hərəkət zolaqlıdır. Hazırda yeni magistralın Şabran rayonunun Gəndob kəndi və Qusar rayonunun Samur qəsəbəsi arasında yerləşən hissəsində tikinti yekunlaşmaq üzrədir. Yeni istiqamət üzrə inşa edilən bu magistral avtomobil yolu əvvəlkindən 13 kilometr qısadır. Yolun qalan hissələrinin gələn ilin ikinci yarısında yekunlaşdırılması planlaşdırılır. Yeni avtomagistrala Giləzi yaşayış məntəqəsi, Siyəzən və Şabran rayonları, həmçinin Quba-Xaçmaz avtomobil yolu ilə kəsişən ərazidən yol qovşaqları vasitəsilə daxil olmaq mümkündür. Yeni magistral avtomobil yolundan istifadə üçün ödənişin hər kilometr üçün yük və minik avtomobillərinə görə fərqli məbləğdə olması nəzərdə tutulub.

Bu yolun inşası beynəlxalq nəqliyyat əməkdaşlığı baxımından strateji önəm daşıyan "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin səmərəliliyini daha da artıracaq. Yolun inşası Azərbaycanın layihədə iştirak edən ölkələrlə iqtisadi əməkdaşlığının daha da genişləndirilməsinə xidmət edəcək. Bundan başqa, yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqla yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, dəhlizlə yük və sərnişin daşımalarında əsas rol oynayacaq.

## Gürcüstanın Baş naziri zati-aliləri cənab Giorgi Qaxariyaya

Hörmətli cənab Baş nazir!

Gürcüstanın Baş naziri vəzifəsinə yenidən təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan-Gürcüstan münasibətləri tarixən möhkəm dostluq və mehriban qonşuluq telləri ilə bir-birinə bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq dinamik və hərtərəfli inkişaf etməkdədir.

İnanıram ki, siyasi, iqtisadi və humanitar sahələrdə daim genişlənən əlaqələrimiz, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimiz arasındakı strateji tərəfdaşlığın möhkəmlənməsinə töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2020-ci il*

## Qələbəmizin memarı

*Əvvəli 1-ci səh.*

Bu il ərzində Prezidentin daha çox insan tərəfindən (68,5 faiz) təqdir olunan digər fəaliyyəti bir sıra icra hakimiyyəti başçılarının, yüksəkvəzifəli şəxslərin qanunazidd fəaliyyətinə görə vəzifədən uzaqlaşdırılması olub. O cümlədən İlham Əliyevin korrupsiyaya qarşı mübarizəni gücləndirməsi və sərt mövqe göstərməsi 60,2 faiz, pandemiyanın mənfi təsirlərini azaltmaq üçün həyata keçirdiyi sosial dəstək siyasəti 60,1 faiz respondent tərəfindən təqdir olunub.

Respondentlərin mütləq əksəriyyəti - 93,7 faizi müharibədə göstərdikləri xidmətlərə görə zabit və əsgər heyətinin təltif olunmasını müsbət qiymətləndirib. Sentyabrın 27-sinin Anım günü kimi qeyd edilməsi ilə bağlı həmfikir olduğunu bəyan edən respondentlər rəyi öyrənilənlərin 96,7 faizini təşkil edib. Noyabrın 8-nin Zəfər günü kimi qeyd edilməsi ilə bağlı qərarı dəstəkləyənlər isə 99 faiz civarındadır. Vətən müharibəsindən sonra Prezidentin siyasi lider kimi şəxsi keyfiyyətlərinə ictimai münasibətə gəlincə, əhalinin mütləq əksəriyyəti (81,6 faiz) dövlət başçısında yeni şəxsi keyfiyyətlər müşahidə edib.

Respondentlərin 94,6 faizi Prezidentin rəhbərliyi ilə ordu quruculuğu və təkmilləşdirilməsi istiqamətində görülən işləri çox səmərəli, 85,1 faizi isə dövlət başçısının xarici siyasət istiqamətindəki fəaliyyətini çox səmərəli qiymətləndirib. İşğaldan azad olunmuş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara inam mütləq çoxluqla (97,7 faiz) xarakterizə edilir.

### Əsl triumf əldə edən yeganə lider

Ötən hər bir il Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi ilə yadda qalır. Bu baxımdan, əvvəldə qeyd edildiyi kimi, Vətən müharibəsindəki qələbəyə görə 2020-ci il xüsusilə əlamətdardır. Ermənistanın müharibədə məğlub edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması İlham Əliyevin tarixi siyasi-hərbi uğuru olmaqla, Azərbaycanın beynəlxalq imicini artırdı. Bu qələbə ilə ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi, bütün dünya bir daha Azərbaycanın regionun lideri olduğunu gördü.

İlham Əliyevin yenilməz qətiyyəti, müdrik və uzaqgörən siyasəti nəticəsində qazanılan bu qələbə Rusiya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilib. Bunu Rusiyanın məşhur "Vedomosti" nəşrinin oxucular arasındakı keçirdiyi səsvermədə Prezident İlham Əliyevin "İlin siyasətçisi" nominasiyası üzrə qalib olması da təsdiq edir. Nəşr yazır: "İlham Əliyevi haqlı olaraq ordusu 2020-ci ildə inamlı hərbi qələbə qazanan, region miqyasına görə isə əsl triumf əldə edən yeganə lider adlandırmaq olar".

Qeyd edək ki, nominasiyanın namizədləri siyahısında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko da olub.

Göründüyü kimi, İlham Əliyevin fəaliyyəti Azərbaycanla yanaşı, onun hüdudlarından kənarda da yüksək qiymətləndirilir. Vətən müharibəsindəki möhtəşəm qələbə, o cümlədən pandemiya ilə mübarizədə beynəlxlaq həmrəyliyin əldə olunmasına verdiyi dəyərli töhfələr bir daha onu göstərdi ki, Azərbaycan Prezdenti dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir cərgədədir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Sizə doğum gününüz münasibətilə səmimi salamlarımı və ən xoş arzularımı çatdırıram. Bu il Sizin 17 illik müdrik və uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı tarixi qələbələrin qazanıldığı uğurlu bir ildir.

Azərbaycanın regionun sabitliyinə ən böyük təhdidlərdən birini uğurla geridə qoyduğu bu dönəmdə biz ikitərəfli və çoxtərəfli əməkdaşlığa nail olmaq və tərəqqi əldə etmək üçün Sizinlə işləməyə hazırıq.

*Dərin hörmətlə,*

***Məhəmməd Əşrəf QANİ,***
***Əfqanıstan İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə həyata keçirilən strateji fəaliyyət xətti sayəsində dünya dövlətləri arasında nüfuzunu daha da möhkəmləndirib və regional siyasətin formalaşdırılmasında aparıcı dövlətə çevrilmişdir.

Türk Şurasının yaradılması və daha da gücləndirilməsində qardaş Azərbaycanın mühüm rolunu bir daha qürurla vurğulamaq istərdim. Sizin sədrliyiniz dövründə Türk Şurası regionumuzda daha cəlbedici platformaya çevrilib. Zati-alinizin təşəbbüsü ilə Türk Şurasının COVID-19 pandemiyasına həsr olunmuş ilk fövqəladə Zirvə görüşü bəşəriyyətin üzləşdiyi belə bir çətin dövrdə türkdilli dövlətlər arasında həmrəyliyin və birliyin nümayişi olaraq beynəlxalq aləmdəki nüfuzumuzu daha da artırıb. Məhz Sizin irəli sürdüyünüz təşəbbüsləri rəhbər tutaraq, Türk Şurası Ümumdünya Səhiyyə Təşkilatı ilə də sıx tərəfdaşlıq münasibətləri qurub.

Zati-aliləri, Sizin Ali Baş Komandan kimi sarsılmaz iradə və qətiyyətiniz, qardaş Azərbaycan xalqı və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində qazandığınız tarixi Qələbə təkcə qardaş Azərbaycan xalqı üçün deyil, bütün Türk dünyası üçün qürur mənbəyinə çevrildi. Müasir Azərbaycan tarixinə böyük hərflərlə yazılacaq bu tarixi Zəfərinizlə Siz BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etdiniz, Azərbaycan Respublikasının beynəlxalq müstəvidə tanınmış ərazi bütövlüyünün bərpasına nail oldunuz, regionumuzda sabitlik, hərtərəfli əməkdaşlıq və davamlı inkişaf üçün şərait yaratdınız.

Habelə xüsusi olaraq vurğulamaq istərdim ki, noyabrın 10-da imzalanmış Bəyanatda Sizin təkidinizlə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsini təmin edəcək dəhlizə dair müddəanın təsbit edilməsi bölgədə uzunmüddətli sülhə və tərəqqiyə öz töhfəsini verməklə yanaşı, qardaş ölkələrimiz arasındakı quru bağlantısını bərpa edərək Türk Şurası çərçivəsindəki inteqrasiya proseslərinin inkişafına da təkan olacaqdır.

Əminəm ki, qardaş xalqlarımızın rifahı naminə üzv ölkələrimiz arasındakı çoxtərəfli əməkdaşlıq münasibətləri bundan sonra da möhkəmlənməkdə davam edəcəkdir.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Sizə bir daha möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar, qardaş Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Bağdad AMREYEV,***
***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycandakı Nümayəndəliyi adından doğum gününüz münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək Azərbaycan Respublikasının hökuməti və BMTİP arasındakı uzunmüddətli səmərəli tərəfdaşlığa görə Sizə minnətdarlığımı bildirir, Azərbaycan xalqının dayanıqlı və firavan gələcəyi naminə birgə səylərimizi davam etdirmək əzmində olduğumuzu bir daha vurğulayıram.

Zati-aliləri, xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Alessandro FRAKASSETTİ,***
***BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsi***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə "TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan təbriklərimi çatdırıram.

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi Sizin Azərbaycanın iqtisadi və sosial tərəqqisi, beynəlxalq aləmdə nüfuzunun artması və əməkdaşlığının genişləndirilməsi istiqamətində xidmətlərinizi yüksək qiymətləndirir.

Hörmətli cənab Prezident, Azərbaycan Respublikası bu gün həyatın bütün sahələrində danılmaz nailiyyətlər qazanıb. Yola salmaqda olduğumuz ilin əhəmiyyətli və tarixi hadisələri Sizin çoxşaxəli fəaliyyətinizi və görkəmli dövlət xadimi kimi rolunuzu bir daha nümayiş etdirdi, dərin hörmət və ehtirama layiq olduğunuzu göstərdi.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan firavan gələcəyə doğru mütərəqqi addımlarla irəliləyəcəkdir.

Fürsətdən istifadə edərək ölkənizin "TRACECA"nın həm milli, həm də beynəlxalq səviyyədə fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə və Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və tərəqqi kimi səmimi və xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Asset ASSAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Azərbaycan-Türkiyə İş Adamları Birliyi (ATİB) adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycanda iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi istiqamətində aparılan siyasəti dəstəkləyir, Uca Allahdan bu yolda Sizə uğurlar diləyirik.

Bu il Sizin və ümumiyyətlə, Azərbaycan xalqı üçün əlamətdar bir ildir. Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan Ordusu 30 il işğal altında qalan torpaqlarımızı azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bu müharibə göstərdi ki, Azərbaycan müasir, güclü ordusu olan və iqtisadiyyatı sürətlə inkişaf edən ölkədir.

Siz Azərbaycan ilə Türkiyə arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ənənəvi dostluq, qardaşlıq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi töhfə vermisiniz. Azərbaycan-Türkiyə İş Adamları Birliyi olaraq bu siyasətin həyata keçirilməsinə daim dəstək göstərəcəyimizə Sizi əmin edirik.

Fürsətdən istifadə edərək təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirik.

Doğum gününüzü bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Cemal YANGIN,***
***Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyat və fəaliyyətiniz Azərbaycanın həyatı və taleyi ilə ayrılmaz surətdə bağlıdır. Başa çatmaqda olan ilin noyabr ayında Siz mərdanə və müdrik qərar qəbul etməklə adınızı doğma Azərbaycanın tarixinə qızıl hərflərlə yazdınız, Azərbaycan xalqı ilə birlikdə çox qısa müddətdə sülhə və dövlətin ərazi bütövlüyünü bərpa etməyə nail oldunuz.

Əminəm ki, Prezident vəzifəsində Sizin çoxşaxəli fəaliyyətiniz Azərbaycanın əməksevər xalqının firavanlığı, ölkənin müstəqilliyinin möhkəmlənməsi və iqtisadi potensialının artırılması işinə töhfə verəcək.

Hörmətli cənab Prezident, Sizə və ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, qardaş Azərbaycan xalqına isə rifah, tərəqqi və uğurlar diləyirəm.

*Hörmətlə,*

***Mayis MƏMMƏDOV,***
***Novosibirsk vilayəti Qanunvericilik Məclisinin Nəqliyyat, sənaye və informasiya siyasəti komitəsinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasında gördüyümüz inkişaf, əldə edilən bütün uğurlar Sizin adınızla bağlıdır, Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl xarici və daxili siyasətin nəticəsidir. Əminik ki, bundan sonra da ölkəmizin və xalqımızın mənafeyinin qorunmasına, Azərbaycanın strateji mövqeyinin daha da möhkəmlənməsinə töhfəniz davamlı olacaqdır.

Biz işğal altında olan qədim Qarabağımızı Sizin rəhbərliyinizlə azad etdik. 44 günlük Vətən müharibəsində Sizin - Müzəffər Ali Baş Komandanımızın, yenilməz, rəşadətli Ordumuzun, Sizə inanan, Sizi sevən Azərbaycan xalqının sayəsində qazanılan tarixi Qələbəni böyük iftixar və əvəzolunmaz qürur hissi ilə qeyd etdik. Bu gün biz dünya azərbaycanlıları Sizin sayənizdə XXI əsrə adımızı qalib xalq kimi qızıl hərflərlə yazdıq. Siz həm siyasi, həm də hərbi sahədə əvəzolunmaz lider və müdrik sərkərdə olduğunuzu bütün dünyaya nümayiş etdirdiniz. Sizin hər müraciətiniz, hər çıxışınız dünya azərbaycanlıları və bizə dəstək olan ölkələrdə məmnunluqla izlənildi. Düşmən və düşmənin tərəfini tutan hər kəs tarixi və sarsıdıcı cavabını aldı. Biz fəxr edirik ki, azərbaycanlıyıq və Sizin kimi müdrik Prezidentin rəhbəri olduğu ölkənin vətəndaşlarıyıq. Tanrı Sizi qorusun!

Biz Sizə inanır və güvənirik. Hər zaman Sizin əmr və göstərişlərinizi rəhbər tutaraq Azərbaycanın haqq səsini, haqlı mövqeyini istər Polşa, istərsə də dünyanın müxtəlif ölkələrinin ictimaiyyətlərinə çatdırmağa və ölkəmizi layiqli şəkildə təmsil etməyə davam edəcəyik.

Bu gün Siz bütün qüvvənizi, təcrübənizi və biliklərinizi xalqın rifahının yaxşılaşdırılmasına yönəldərək planlarınızı uğurla real işlərə çevirirsiniz. Sizin yüksək peşəkarlığınız, məqsədyönlü fəaliyyətiniz və uzaqgörən siyasətiniz ölkənin sosial-iqtisadi inkişafına, vətəndaşlarımızın həyat səviyyəsinin və rifahının yüksəldilməsinə şərait yaradır. Sizin fəaliyyətiniz, dövlətimizin mənafelərinə sədaqətiniz, fəal həyat mövqeyiniz Azərbaycana təmənnasız xidmətin parlaq nümunələridir.

Siz müasir Azərbaycanın qurucusu, Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarını və prinsiplərini həyata keçirərək, Ulu Öndərimizin daxili və xarici siyasətini davam və inkişaf etdirərək, tapşırıq və göstərişlərini rəhbər tutaraq Azərbaycan dövlətçiliyini uğurla möhkəmləndirirsiniz. Azərbaycan Sizin rəhbərliyiniz dövründə mühüm uğurlar qazanıb. Əminik ki, Sizin ali dövləti fəaliyyətiniz bundan sonra da ölkəmizin hərtərəfli tərəqqisinə və iqtisadiyyatımızın inkişafına şərait yaradacaq. Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə dünyada öz sözünü deyən, güclü, uğurlu və inkişaf edən ölkədir.

Zati-aliləri, doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq.

Möhtərəm cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, Polşa Azərbaycanlıları Şurasının üzvləri və Polşada yaşayan azərbaycanlılar adından Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, səadət, Azərbaycanın inkişafı naminə bütün təşəbbüslərinizdə uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Fərid CƏFƏRLİ,***
***Polşa Azərbaycanlıları Şurasının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Moldova Azərbaycanlıları Konqresi və Moldovada Azərbaycan diasporu Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Sizə möhkəm cansağlığı, ailə xoşbəxtliyi, böyük planlarınızın uğurla reallaşmasını arzulayırıq.

Siz Azərbaycanın müasir tarixinin mühüm şəxsiyyətinə çevrilmisiniz. Bütün dünya Sizin rəhbərliyinizlə Azərbaycan xalqının sıx birləşməsinə, Qarabağın erməni işğalından çoxdan gözlənilən xilasına və Vətənimizin tarixi sərhədlərinin bərpasına şahid oldu.

Ədalət uğrunda mübarizədə qəhrəmanlıq, Azərbaycan xalqının onilliklər boyu gözlədiyi rəşadət və qələbə Sizin adınızla həmişəlik bağlıdır. Qorxubilməz lider, böyük strateq və qətiyyətli siyasi xadim - bu gün Azərbaycan özünün belə Prezidenti ilə fəxr etməkdən şərəf duyur. Biz xalqımızın belə lideri ilə fəxr edirik!

Cənab Prezident, bu əlamətdar gündə Sizə uzun ömür, əmin-amanlıq, Azərbaycan və onun xalqının rifahı naminə fəaliyyətinizdə yeni uğurlar, qələbələr və nailiyyətlər arzulayırıq.

Qoy, Sizin doğma ölkənizin iqtisadiyyatının, mədəniyyətinin, sosial həyatının inkişafına yönəlmiş səyləriniz qeyd-şərtsiz dəstəklənsin və gerçəkləşsin! Vətənin firavanlaşması üçün Sizin bütün təşəbbüsləriniz və işləriniz daim uğurlu olsun!

*Hörmətlə,*

***Moldova Azərbaycanlıları Konqresinin Şurası adından:***

***Elçin BAYRAMOV,*** *sədr*
***Ramil ADIGÖZƏLOV, Marif BERQAN, Zamin BAYRAMOV, Zamir QUBADOV, Aynurə ƏBDÜLRƏHİMOVA, Mahizər MƏMMƏDOVA, Ramiz ƏNSƏROV, Röya ZAMANOV***

## Milli Məclisin iclasında

# Büdcə zərfinə daxil olan məsələlər ikinci oxunuşda qəbul olundu



*Əvvəli 1-ci səh.*

Komitə sədri dedi ki, DSMF-nin büdcəsinin gələn il üçün həm gəlirlərində, həm də xərclərində 7,6 faiz artım olacaq, pensiyaların artım dinamikası davam edəcək, pensiyalar təxminən 9,3 faiz artacaq. Əmək pensiyalarının orta aylıq məbləğinin 38 manatadək artaraq gələn il ölkə üzrə 340 manata, yaşa görə pensiyaların orta aylıq məbləğinin isə 370 manata çatacağı proqnozlaşdırılır ki, bu da Prezident İlham Əliyevin apardığı məqsədyönlü sosial siyasətin bariz nümunəsidir.

Müavinətlərdə də xeyli artımlar proqnozlaşdırılır və bütövlükdə DSMF-nin gələn il üçün büdcəsi aztəminatlı vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsində etibarlı təminat yaradacaq.

Müzakirələr zamanı komitə sədri Siyavuş Novruzov, deputatlardan Soltan Məmmədov, Fazil Mustafa, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Məlahət İbrahimqızı, Aydın Mirzəzadə, Aqil Abbas fikirlərini bildirdilər və təkliflərini səsləndirdilər. Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Komitə sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" qanun layihəsi barədə də (ikinci oxunuş) məlumat verdi. Bildirildi ki, fondun 2021-ci il büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 157 milyon 769 min manat məbləğində nəzərdə tutulub. Fondun gəlirlərinin böyük hissəsi, yəni 69 milyon manatı özünəməşğulluq tədbirlərinin təşkilinə sərf olunacaqdır ki, bu da şəhid ailələrinin, Qarabağ qazilərinin məşğulluğunun təmin olunmasını təmin edəcək. Layihə ikinci oxunuşda qəbul olundu.

"Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsi barədə (ikinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Qeyd olundu ki, 2021-ci il üçün yaşayış minimumunun ölkə üzrə 190 manatdan 196 manata, əmək qabiliyyətli əhali üçün 201 manatdan 207 manata, pensiyaçılar üçün 157 manatdan 162 manata, uşaqlar üçün 170 manatdan 175 manata qaldırılması planlaşdırılır.

Deputat Fazil Mustafa fikirlərini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Daha sonra "Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarıldı. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirdi ki, gələn il üçün ehtiyac meyarının həddinin daha 10 manat və yaxud 6,2 faiz artırılaraq, 170 manat məbləğində olması nəzərdə tutulur. Layihə ikinci oxunuşda qəbul olundu.

"Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili diqqətə çatdırdı. Bildirdi ki, dəyişiklik texniki xarakter daşıyır. Belə ki, 2019-cu ildən DSMF-nin təşkilati-hüquqi forması dəyişdiyindən qanunda "sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsi"nin sözləri dəyişdirilərək "Dövlət Sosial Müdafiə Fondunun büdcəsi" yazılması nəzərdə tutulur.

Deputat Aydın Hüseynovun fikirləri dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Komitə sədri Musa Quliyev mahiyyətcə bir-birinə yaxın olan növbəti üç məsələni ikinci oxunuşda müzakirəyə təqdim etdi. Bildirdi ki, "Sosial sığorta haqqında" qanuna təklif olunan dəyişiklik DSMF-nin statusunun dəyişdirilərək publik hüquqi şəxsə çevrilməsi ilə bağlıdır. "Əmək pensiyaları haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə məsələlərin mahiyyəti isə pensiya və sosial müavinət təyinatında sosial sığorta prinsiplərinin gücləndirilməsi, bəzi kateqoriyaya aid şəxslər üçün nəzərdə tutulan pensiya əlavələrinin və sosial müavinət növlərinin Prezident təqaüdü ilə birləşdirilməsi, sığorta stajı sahəsində güzəştlərin daha iki il müddətində artırılması, pensiya təyinatının elektronlaşdırılması istiqamətində islahatların dərinləşdirilməsi məqsədi daşıyır.

Qısa müzakirədən sonra hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olundu.

İclasda "Siyasi partiyalar haqqında" qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclis sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli dedi ki, qanun layihəsi üçüncü oxunuşun bütün tələblərinə cavab verir.

Deputat Fazil Mustafanın və komitə sədri Siyavuş Novruzovun fikirləri dinlənildikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Qısa fasilədən sonra Milli Məclis öz işini davam etdirdi. Milli Məclisin sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəliyə iki məsələnin əlavə olunması təklif olunur. Bunlar Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Dövlət borcu haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələridir.

"Müflisləşmə və iflas haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri (birinci oxunuş) barədə məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bildirdi ki, hər iki layihədə təklif olunan dəyişiklik Dünya Bankının "Doing Business" hesabatında "Müflisləşmənin həlli", "Vergilərin ödənilməsi" və "Əmlakın qeydiyyatı" indikatorları üzrə kreditorların hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi, habelə sərf olunan müddət, prosedur və xərclərin optimallaşdırılması məqsədilə hazırlanıb və ölkəmizin "Doing Business" hesabatında qeyd olunan indikatorlar üzrə mövqeyinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur.

Deputatlardan Razi Nurullayevin və Rüfət Quliyevin fikirləri dinlənildikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

Sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə (birinci oxunuş) məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, qanuna iki maddənin əlavə edilməsi təklif olunur. Birinci maddə iri neft emalı zavodunun (illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması çərçivəsində avadanlıqların və materialların idxalına 2021-ci ildən etibarən 2 il müddətində ƏDV-dən azad olunmasını özündə ehtiva edir.

Belə ki, 2018-ci ildən etibarən Azərbaycanda Heydər Əliyev adına Neft Emalı Zavodunun yenidən qurulması zamanı istifadə olunacaq xaricdən gətirilən avadanlıqlara ödənilən ƏDV-nin ARDNŞ-ə geri qaytarılması mexanizmi var idi. Avadanlıqlar alınıb gətirilirdi, rüsum ödənilirdi, sonra isə həmin vəsait Dövlət Neft Şirkətinə geri qaytarılırdı. Bu mexanizm iki il idi fəaliyyət göstərirdi. Bu dəyişiklik həmin mexanizmin ləğv olunmasını və idxal zamanı alınmamasını özündə ehtiva edir.

İkinci maddə isə ölkəmizə koronavirus infeksiyasına qarşı vaksinlərin idxalı zamanı həmin vaksinlərin və şprislərin 2021-ci il yanvarın 1-dən idxalda ƏDV-dən azad olunmasını nəzərdə tutur. Bu, daha aşağı qiymətə daha çox əhalinin vaksinasiya olunmasına imkan verəcək.

Deputat Qüdrət Həsənquliyevin fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda təsdiq edildi.

Tahir Mirkişili "Dövlət borcu haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini də müzakirəyə təqdim etdi. Qeyd etdi ki, qanunla hər bir büdcədənkənar fondla büdcə arasında olan əlaqə tənzimlənir. Təminat Fondu da büdcədənkənar bir fonddur. Onun yaradılmasının əsas məqsədi dövlət zəmanəti ilə dövlət şirkətlərinin götürdüyü borca xidmət mexanizminin yaradılmasıdır. Təminat Fondu bu borcu özü ödəyir, daha sonra isə dövlət şirkətləri götürdüyü borclara görə aylıq, illik ödəmələri həmin fonda ödəyir. İndiyədək qanunda dövlət büdcəsindən Təminat Fonduna ödəmənin mexanizmi mövcuddur, amma əks mexanizm mövcud deyil. Bu dəyişiklik həmin əks mexanizmin yaradılması məqsədini daşıyır.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Vətən müharibəsi qaziləri daim diqqət mərkəzindədir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva hər zaman şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və onların ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərirlər.

Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərin müalicəsi, sağlamlıqlarının bərpası hər zaman diqqət mərkəzində saxlanılır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədrinin müavini Adil Əliyev və Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi vəzifələrini icra edən polkovnik Elxan İbrahimov Vətən müharibəsində yaralanan və Buzovna qəsəbəsindəki Sanator-Kurort Reabilitasiya Mərkəzində müalicələrini davam etdirən hərbçilərlə görüşüblər.

Əvvəlcə qonaqlar mərkəzin foyesində Ümummilli Lider Heydər Əliyevin guşəsi önünə gül dəstəsi qoyub, hörmət və ehtiramlarını bildiriblər.

Sonra onlar reabilitasiya mərkəzində hərbçilərin müalicəsi və burada yaradılan şəraitlə yaxından maraqlanıblar.

A.Əliyev və E.İbrahimov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət və qayğıdan, Vətən müharibəsində qələbəmizin əhəmiyyətindən danışaraq yaralı hərbçilərin tezliklə sağalaraq ailələrinə və xidmət yerlərinə qayıtmalarını arzulayıblar.

Sonda mərkəzdə müalicə alan yaralı hərbi qulluqçulara hədiyyələr təqdim olunub.

# *Hikmət HACIYEV*: "Mədəni irsin qorunması ümumbəşəri öhdəlikdir və UNESCO tərəfindən siyasi məqsədlər üçün istifadə olunmamalıdır"

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev AZƏRTAC-a məxsusi müsahibə verib. Müsahibəni təqdim edirik.



**- Hikmət müəllim, 2020-ci il dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı qeyd etdi ki, Azərbaycan 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət edərək işğal olunmuş ərazilərimizdə məscidlərimizin və tarixi abidələrimizin işğalçı Ermənistan tərəfindən dağıdıldığını, erməniləşdirildiyini bildirib. Lakin UNESCO bir dəfə də olsun missiya göndərməyib. 30 il Azərbaycanın missiya ilə bağlı çağırışlarına cavab vermədiyi halda son dövrlər UNESCO-nun ölkəmizə missiya göndərmək istəyini necə izah etmək olar?**

- Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan işğal edilmiş ərazilərimizdə xalqımızın mədəni, tarixi və dini abidələrinin qəsdən dağıdılması və ya ermənişdirilməsi kimi qanunsuz əməllər həyata keçirib.

Həmin ərazilərdə Ermənistan tərəfindən 927 kitabxana, 60-dan çox məscid, 44 məbəd, 473 tarixi abidə, saray və muzeylər dağıdılıb, eləcə də 40.000 muzey eksponatı qanunsuz olaraq daşınıb.

Ermənistanın qanunsuz əməllərini araşdırmaq və qarşısını almaq məqsədilə Azərbaycan dəfələrlə UNESCO missiyasının işğal olunmuş ərazilərimizə göndərilməsi təklifi ilə çıxış edib. İşğalçı dövlət olan Ermənistan isə qeyri-konstruktivlik nümayiş etdirərək Azərbaycanın UNESCO missiyası ilə bağlı bütün çağırışlarının qarşısını alıb.

Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistanın qanunsuz əməlləri barədə beynəlxalq ictimaiyyət, o cümlədən UNESCO bütün bu illər ərzində davamlı şəkildə məlumatlandırılıb. Bu məqsədlə bir sıra nəşrlər hazırlanıb. Məsələn, 2007-ci ildə "Azərbaycana qarşı müharibə - mədəni irsə hücum" adlı kitab hazırlanıb və UNESCO-ya təqdim edilib. Bu kitabda ölkəmizin işğal edilmiş ərazilərində Ermənistan tərəfindən dağıdılmış mədəni və dini abidələrin siyahısı, onların qəsdən ermənişdirilməsi, Alban kilsələrinin erməni kilsələri kimi təqdim edilməsi barədə geniş məlumatlar yer alıb. Amma UNESCO tərəfindən adekvat reaksiya verilmədi.

Hələ 2008-ci ildə UNESCO-nun o zamankı Baş direktoru Koişiro Matsuuranın ölkəmizə səfəri zamanı Azərbaycan tərəfi belə bir missiyanın təşkil olunmasını təklif etmişdi. O zaman Baş direktor məsələni izlədiklərini və missiyanın vaxtı haqqında dəqiq fikir söyləyə bilmədiyini qeyd etmişdi.

Yadımdadır, Xarici İşlər Nazirliyində mətbuat xidmətinin rəhbəri olduğum zaman bu mövzu ilə bağlı bir sıra açıqlamalarla çıxış etmişdim. 2015-ci ildə müsahibələrin birində qeyd etmişdim ki, Azərbaycan UNESCO-nu ölkəmizin işğal olunmuş ərazilərində maddi-mədəni irsin dağıdılması hallarını araşdırmaq və monitorinq aparmaq üçün missiya göndərməyə dəvət edir. Amma Ermənistan bu missiyanın həyata keçirilməsinə imkan vermir. Çünki missiya həyata keçiriləcəyi təqdirdə işğal olunmuş ərazilərdə xalqımıza aid maddi-mədəniyyət abidələrinə qarşı vandalizm halları sənədləşdiriləcək və beynəlxalq ictimaiyyətə təqdim olunacaq.

2016-cı ildə Ağdamın Cümə məscidinin Ermənistan tərəfindən hərbi məqsədlərlə istifadə edilməsi barədə məlumatlar daxil olmuşdu. Xarici İşlər Nazirliyinin bəyanatında bildirilmişdi ki, bu, beynəlxalq hüququn, o cümlədən 1954-cü il Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Haaqa Konvensiyasının kobud şəkildə pozulmasıdır.

Odur ki, rəsmi Yerevan indi timsah göz yaşları tökmək və siyasi möhtəkirliklə məşğul olmaq əvəzinə, UNESCO missiyasına nəyə görə imkan vermədiyinə aydınlıq gətirməlidir. Təəssüf ki, UNESCO da bu məsələdə prinsipiallıq, qətiyyət nümayiş etdirmədi, hətta bəyanat belə vermədi.

2020-ci il tariximizə qızıl hərflərlə yazıldı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Nəticədə bütün dünya Ermənistanın mədəni irsimizə qarşı törətdiyi vəhşiliklərin, barbarlığın bir daha şahidi oldu. Bu yaxınlarda Prezident İlham Əliyevin tapşırığı ilə biz ölkəmizdə akkreditə olunmuş diplomatları işğaldan azad edilmiş Füzuli və Ağdam şəhərlərinə apardıq. Orada bütün binalar, abidələr dağıdılıb, sökülüb. Ağdamda Qarabağ xanlarının dəfn edildiyi tarixi "İmarət" qəbiristanlığının dağıdıldığını və təhqir olunduğunu gördük.

İşğal edilmiş ərazilərimizdə muzey eksponatları, əlyazmalar, xalçalar, tarixi zinət əşyaları Ermənistan tərəfindən qanunsuz olaraq daşınıb, mənimsənilib və xaricə satılıb. Məsələn, məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvanın Şuşadakı ev-muzeyi dağıdılıb və muzeydə toplanmış yüzlərlə nadir sənət incisi, rəsm əsərləri, xalçalar, miniatürlər, xatirə əşyaları, arxeologiya nümunələri işğalçılar tərəfindən dağıdılaraq talan edilib. Ağdamdakı məşhur Çörək muzeyi dağıdılıb. Bir çox dəyərli Qarabağ xalçaları Ermənistana aparılıb və xaricə satılıb. Dünya əhəmiyyətli arxeoloji abidə olan Azıx mağarasında və Ağdamda Ermənistan tərəfindən qanunsuz arxeoloji qazıntılar aparılıb və dəyərli tapıntılar Ermənistana daşınıb. Faktiki olaraq Ermənistan dövlət səviyyəsində vandallıq, talançılıq, soyğunçuluq siyasəti həyata keçirib.

Ermənistanın bu kimi addımları beynəlxalq humanitar hüququn, xüsusilə "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının və UNESCO-nun "Mədəni mülkiyyətin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasının kobud şəkildə pozulmasıdır.

Ermənistan bu qanunsuz əməllərinə görə məsuliyyət daşıyır, bu əməllərinə görə cavab verməli və oğurladığı daşına bilən mədəni irs nümunələrini öz qanuni sahibi olan Azərbaycana qaytarmalıdır.

Ermənistanın törətdiyi vəhşiliklər, vandallıq, talançılıq barədə son aylarda dünya mediasında çoxsaylı məlumatlar getdi, reportajlar hazırlandı. UNESCO Ermənistanın bu qanunsuz əməllərinə adekvat reaksiya verməli və bunları pisləməlidir. Lakin paradoksal odur ki, həm Vətən müharibəsinin gedişatı zamanı, həm də ondan sonra UNESCO anlaşılmaz, reallıqdan uzaq və yanlış istiqamətdə olan bir sıra bəyanatlarla çıxış etdi. Bu günlərdə isə UNESCO-nun Baş direktorunun müavini missiya ilə bağlı Azərbaycandan cavab gözlədikləri barədə açıqlama verib.

İlk növbədə, bildirmək istərdim ki, bu açıqlamanın məzmunu və tərzi Azərbaycan tərəfi üçün qəbuledilməzdir və açıq-aşkar qərəzli mahiyyət daşıyır. Azərbaycan multikultural və tolerant ölkə olaraq öz ərazisində yerləşən bütün mədəni, dini abidələrin qorunmasını təmin edir. İstər müsəlman abidəsi olsun, istər yəhudi, istərsə də xristian. Elə təkcə bir fakt - bu yaxınlarda Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsinin Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilməsi bunun bariz nümunəsidir.

UNESCO və bəzi dövlətlərin Azərbaycanın qələbəsindən sonra missiya məsələsini qabartmaları bizdə bir sıra suallar doğurur. Bəs əvvəllər niyə UNESCO missiya göndərmirdi? İşğal edilmiş Azərbaycan ərazilərində məscidlər dağıdılanda, orada donuz, inək saxlanılanda UNESCO buna niyə reaksiya vermirdi?! Cənab Prezidentin qeyd etdiyi kimi, elə çıxır ki, məscidi dağıtmaq olar?!

Amma ortada heç bir əsas olmadığı halda işğaldan azad edilmiş ərazilərdəki xristian abidələrinin taleyi bəzilərini, o cümlədən UNESCO rəhbərliyini "yaman narahat edir". Bir daha vurğulamaq istərdim ki, biz ölkəmizdə olan bütün dinlərə aid abidələrə böyük hörmətlə yanaşır və onları mühafizə edirik. Lakin UNESCO-nun reaksiyasından belə təəssürat yaranır ki, sanki xristian abidələri müsəlman abidələrindən daha önəmlidir. Bu, onu göstərir ki, mənsubiyyətindən asılı olmayaraq bütün dini, mədəni abidələr qorunmalı olduğu halda, UNESCO və bəzi siyasi dairələr tərəfindən açıq-aşkar dini zəmində ayrı-seçkilik edilir. Bütün bunlar siyasi riyakarlığın və ikili standartların bariz nümunəsidir.

Burada bir faktı da vurğulamaq istərdim. 2018-ci ilin yanvarında Azərbaycanın xarici işlər naziri o zaman yeni seçilmiş Baş direktor Odre Azuley ilə görüşdə işğal altında olan ərazilərimizə UNESCO missiyasının göndərilməsi məsələsini bir daha qaldırmışdı.

**- Bəs Odre Azuleyin bu məsələyə münasibəti necə olmuşdu?**

- Çox maraqlıdır ki, O.Azuley bildirmişdi ki, UNESCO humanitar təşkilatdır və bu səbəbdən də siyasi məsələlərə müdaxilə etmək istəmirik.

Amma indi üstündən cəmi iki il keçəndən sonra artıq deyəsən UNESCO-nun humanitar təşkilat olduğu "yadından çıxıb". Azərbaycanın şanlı Vətən müharibəsindən sonra UNESCO rəhbərliyi niyə belə tez mövqeyini dəyişdi?! Nədən bir məsələ ilə bağlı təşkilatda davamlı mövqe yoxdur?! Əlbəttə, belə yanaşma Azərbaycanı və ümumiyyətlə, beynəlxalq ictimaiyyətin digər məsuliyyətli üzvlərini qane edə bilməz. Sözügedən görüşün yazısı bizim diplomatik arxivdə saxlanılır.

Aydın şəkildə sezilir ki, Azərbaycanın əldə etdiyi Zəfər nəticəsində regionumuzda yaranmış yeni reallıq bir çox siyasi dairələri narahat edir və onlar bununla barışa bilmirlər. Təəssüf doğuran bir haldır ki, UNESCO da ya məqsədli şəkildə, ya da bilməyərəkdən bu proseslərə cəlb olunub. UNESCO rəhbərliyi bu siyasətdən əl çəkməlidir. UNESCO hökumətlərarası bir təşkilatdır və öz fəaliyyətini mandatına uyğun olaraq obyektiv və qərəzsiz surətdə həyata keçirməlidir. UNESCO rəsmiləri vətəndaşı olduqları dövlətlərin milli gündəliyini irəlilətməklə məşğul olmamalıdır. UNESCO hansısa dövlətin siyasi təsir alətinə çevrilməməlidir. Bu, onun imicinə, müstəqilliyinə çox böyük bir zərbədir. Mədəni irsin qorunması ümumbəşəri öhdəlikdir və siyasi məqsədlər üçün istifadə olunmamalıdır.

**- Hazırda Azərbaycanın UNESCO-nun missiyası ilə bağlı mövqeyi necədir?**

- Bilirsiniz, Azərbaycanın mövqeyi haqlıdır və davamlıdır. Yəni dünən olduğu kimi, bu gün də Azərbaycan UNESCO missiyasının təşkilinə qarşı çıxmır. Sadəcə, beynəlxalq hüquqa və müvafiq prosedurlara uyğun davranılmalıdır. Təhlükəsizlik şəraiti imkan verdiyi zaman missiyanın aydın mandatı və tərkibi Azərbaycan və UNESCO arasında razılaşdırılmalıdır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət olunmalıdır.

Hazırda Mədəniyyət Nazirliyi işğaldan azad olunmuş ərazilərimizdəki mədəni abidələrimizin vəziyyətini qiymətləndirir və bu məlumatlar UNESCO-ya təqdim ediləcək. Ermənistan digər sahələrdə olduğu kimi, işğal zamanı Azərbaycan xalqının bu torpaqlardakı izini silmək məqsədilə həyata keçirdiyi mədəniyyət soyqırımına və terroruna görə cavab verməlidir.

**- Belə xəbərlər yayılır ki, UNESCO UNITAR ilə birgə Qarabağda müəyyən layihələr həyata keçirmək istəyir. Azərbaycanın buna münasibəti necədir?**

- Bəli, biz də bu barədə eşitmişik. Bu iki təşkilat peyklər vasitəsilə Qarabağda müşahidələr aparmaq və mədəni irsin qorunması ilə bağlı oradakı vəziyyəti qiymətləndirmək istəyir. Birmənalı şəkildə bildirmək istəyirəm ki, belə özfəaliyyət qəbuledilməzdir. Həm UNESCO, həm də UNITAR BMT təşkilatlarıdır. Onlar beynəlxalq hüquqa və BMT-nin müvafiq qaydalarına uyğun hərəkət etməlidirlər. Qarabağ Azərbaycan torpağıdır və orada həyata keçirilən istənilən fəaliyyət Azərbaycanla razılaşdırılmalıdır. Əks halda tərəfimizdən bu, birbaşa olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı hörmətsizlik kimi qiymətləndiriləcək və adekvat reaksiya veriləcək.

**- Hikmət müəllim, Azərbaycan silahlı münaqişələr zamanı mədəni irsin qorunması istiqamətində UNESCO-da başqa hansı işlər aparmışdır? Ümumiyyətlə, UNESCO ilə münasibətlərimizin gələcəyi barədə nə deyə bilərsiniz?**

- UNESCO ilə əməkdaşlıq çərçivəsində Azərbaycan silahlı münaqişələr dövründə mədəni abidələrin qorunması məsələsinə xüsusi diqqət ayırıb. Azərbaycan 2011-ci ildə UNESCO-nun silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə komitəsinə üzv seçilib və onun çərçivəsində fəal üzv kimi təşəbbüslərlə çıxış edib. 2012-2013-cü illərdə komitə çərçivəsində "İşğal edilmiş ərazilərdə mədəni abidələrin qorunması" adlı sənəd müzakirə edilib və qəbul olunub. Ölkəmizin təşəbbüsü və fəal iştirakı ilə hazırlanmış bu sənəd dünyada olan münaqişələr zamanı, işğal altındakı ərazilərdə UNESCO Katibliyinin mədəni abidələrin qorunması ilə bağlı atmalı olduğu addımları ehtiva edirdi.

Azərbaycanın özü işğaldan əziyyət çəkmiş bir ölkə kimi nəinki yalnız işğal olunmuş ərazilərimizdə, eləcə də bütün dünyada mədəni abidələrin dağıdılması məsələsinə həssaslıqla yanaşıb və UNESCO ilə bu sahədə əməkdaşlığa daim önəm verib. Bizim düşüncəmiz belə olub ki, mədəni irs yalnız ayrıca bir xalqa deyil, bütün bəşəriyyətə məxsusdur.

2016-cı ildə UNESCO tərəfindən Mədəni abidələrin qorunması üzrə ilk "Hərbi bələdçi" hazırlanıb. Bu bələdçi çox önəmli nəşrdir və fərqli dillərə tərcümə edilərək bir çox dövlətlər və beynəlxalq təşkilatlar, o cümlədən NATO tərəfindən istifadə edilir. Bələdçinin hazırlanması üçün maliyyə töhfəsini məhz Azərbaycan verib. Həmçinin onun müəllifləri arasında İtaliya, İngiltərə, Fransa mütəxəssisləri ilə yanaşı, azərbaycanlı ekspert də yer alıb. Bu, ölkəmizin mədəni abidələrin qorunması sahəsinə verdiyi önəmin, eləcə də bu sahədə olan nüfuzunun göstəricisidir.

Həmçinin UNESCO-nun ən mötəbər qurumlarından olan Ümumdünya İrs Komitəsində 2015-2019-cu illər ərzində üzvlüyü zamanı da Azərbaycan silahlı münaqişələr zamanı mədəni irsin qorunması məsələsini daim gündəmdə saxlayıb.

Sualınızın ikinci hissəsinə gəldikdə isə deməliyəm ki, UNESCO ilə əməkdaşlıq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın daim diqqət mərkəzində olub. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva 2004-cü ildə Azərbaycan şifahi xalq ədəbiyyatı və milli musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsində xidmətlərinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülüb. Məhz onun təşəbbüsü və dəstəyi ilə istər Azərbaycanda, istərsə də xarici ölkələrdə mədəni irsin qorunması sahəsində önəmli layihələr həyata keçirilib, məktəblər inşa edilib, məscidlər, kilsələr, tarixi abidələr bərpa olunub.

Beynəlxalq hüquqa, beynəlxalq humanitar fəaliyyətə, multikulturalizmə böyük əhəmiyyət verən Azərbaycan UNESCO ilə bundan sonra da səmərəli, konstruktiv, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığa hazırdır. Azərbaycan UNESCO-dan da özünə münasibətdə eyni yanaşmanı gözləyir.

# Ceyhun BAYRAMOV: "GUAM demokratiyanın təşviqi, regional təhlükəsizliyin gücləndirilməsi üçün vacib regional platformadır"

28 dekabr 2020-ci il tarixində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın Xarici İşlər Nazirləri Şurasının növbəti 36-cı iclası keçirilib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun sədrliyi ilə keçən iclasda Gürcüstan xarici işlər naziri David Zalkaliani, Moldova xarici işlər və Avropaya inteqrasiya naziri Aureliu Çokoy və Ukrayna xarici işlər nazirinin müavini Vasil Bodnar iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda 2020-ci il ərzində GUAM çərçivəsində əməkdaşlığın qiymətləndirilməsi, gələcək illər üçün təklif və tövsiyələr müzakirə olunub.

Tədbirdə çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Azərbaycanın GUAM-da sədrliyi başa çatır. Nazir qeyd edib: "Ötən il bir çox məsələ çətin il olub. İndi isə əməkdaşlığımızı qiymətləndirmək və gələcəyə baxmaq vaxtıdır.

GUAM demokratiyanın təşviqi, regional təhlükəsizliyin gücləndirilməsi və davamlı inkişafın genişləndirilməsi üçün vacib regional platformadır. Bizim təşkilatımızın beynəlxalq əlaqələr sistemində rolu əhəmiyyətli dərəcədə artmaqda davam edir. Biz inanırıq ki, daha çox effektivlik və sinerji imkanları üçün potensial mövcuddur.

Müsbət inkişaf təşkilatlararası əməkdaşlıq sahəsində də müşahidə edilib. GUAM və Dəmir Yolları Əməkdaşlıq Təşkilatı arasında anlaşma memorandumu imzalanıb. Birləşmiş Millətlər Narkotiklərə qarşı mübarizə idarəsi ilə anlaşma memorandumu layihəsi demək olar ki, tamamlanmış və yaxın zamanlarda imzalanacağı gözlənilir".

Bu görüşün 2020-ci il ərzində müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin dinamikasını dəyişən COVID-19 pandemiyasının yayılmağa davam etdiyi dövrdə baş tutduğunu diqqətə çatdıran nazir deyib ki, milli səviyyədə koronavirusa qarşı mübarizə səylərimiz əsasən pandemiyanın iqtisadi və sosial sahələrə təsirlərini nəzərə almaqla, əhaliyə qarşı mənfi təsirlərin aradan qaldırılmasına yönəlib. "Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə Azərbaycanın sədrlik etdiyi təşkilatların sammit görüşləri may ayında və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası dekabrın 3-4-də keçirilib. Azərbaycan indiyə kimi Ümumdünya Səhiyyə Təşkilatının COVID-19 Mübarizə Fonduna könüllü maliyyə yardımını (cəmi 10 milyon ABŞ dolları) təmin etmək məqsədilə 2 donor razılaşması imzalayıb. Bu yaxınlarda biz 21 milyon ABŞ dolları məbləğində töhfə ilə COVAX-a (Vaccines Global Access Facility) qoşulmuşuq. Ümid edirik ki, tezliklə təhlükəsiz və effektiv vaksinlər əldə ediləcək və qlobal səviyyədə əlçatan qiymətlərlə paylaşılması üçün ictimai məhsullar kimi nəzərdən keçiriləcək", - deyə Ceyhun Bayramov vurğulayıb.

Qeyd olunub ki, pandemiya, həmçinin GUAM daxilində əməkdaşlığa da mənfi təsir göstərib. Azərbaycanın sədrlik proqramı tam olaraq planlaşdırıldığı şəkildə həyata keçirilə bilməyib. Buna baxmayaraq, il ərzində 30-dan çox tədbir baş tutub. GUAM-ın işçi qrupları və mütəxəssisləri ümumi maraq kəsb edən sahələrdə əməkdaşlığın möhkəmləndirilməsi üçün onlayn görüşlər keçirməyə davam ediblər.

Azərbaycanın regional əməkdaşlığın tərəddüdsüz dəstəkçisi, bölgədə mehriban qonşuluq münasibətlərinin və sabitliyin möhkəmləndirilməsində, iqtisadi-ticari əlaqələrin gücləndirilməsi üçün əlverişli şəraitin yaradılmasında çox maraqlı olduğunu vurğulayan nazir bildirib: "Bunlar bizim işimiz üçün ümumi bir çərçivəni təşkil edir və Azərbaycan öz sədrliyində bu yanaşmaya əsaslanıb. Ümumi hədəflərə xidmət etmək üçün sədrlik prioritetləri təyin olunub. Nəticə etibarilə ticarət, nəqliyyat və kommunikasiya kimi perspektivli sahələrdə bizim əməkdaşlığımız daha da dərinləşib.

Biz əsasən təşkilatımız üçün çox vacib layihə olan GUAM Nəqliyyat Dəhlizinin reallaşdırılmasına diqqət ayırdıq. Nəqliyyat Nazirlərinin sonuncu görüşü və birgə bəyanat bağlantının genişləndirilməsi üçün vacib addımdır. Artıq Nəqliyyat Dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırılması üçün Avropa İttifaqı ilə işə başlamışıq və Aİ-nin bu layihəni dəstəkləməyə marağını yüksək qiymətləndiririk".

Nazir bildirib ki, GUAM-ın daha bir qabaqcıl təşəbbüsü - azad ticarət sazişi ilə bağlı danışıqlar davam edir. Layihənin bütün üzv dövlətlərin maraqlarına və gözləntilərinə uyğun şəkildə inkişaf etməsi çox vacibdir.

"Biz beynəlxalq təşkilatlarla GUAM formatında səmərəli əməkdaşlıqdan və birgə fəaliyyətlərin əlaqələndirilməsindən məmnunuq. BMT Baş Assambleyasının hazırkı 75-ci sessiyası çərçivəsində "Birləşmiş Millətlər Təşkilatı ilə GUAM arasında əməkdaşlıq" qətnaməsi yekdilliklə qəbul edilib. Biz eyni zamanda BMT Baş Assambleyasının "GUAM regionunda həll olunmamış münaqişələr və bunların beynəlxalq sülh, təhlükəsizlik və inkişafa təsirləri" ilə bağlı qətnamə layihəsinin təşviqi istiqamətində işimizi davam etdirməliyik.

Biz Aİ üzv dövlətlərinin GUAM üzv ölkələrinin Helsinki Yekun Aktında bəyan edildiyi kimi, ərazi bütövlüyü, müstəqillik və suverenliyi daxil olmaqla, qaydalara əsaslanan beynəlxalq nizama, beynəlxalq hüquqa öhdəliklərini təsdiqlədikləri 2020-ci ildən sonrakı Şərq Tərəfdaşlığı siyasətinə dair Aİ Şurası Nəticələrini alqışlayırıq. GUAM üzv dövlətlərinin mövzu ilə bağlı yekdil mövqeyi çox mühüm əhəmiyyət kəsb edib və ümid edirik ki, yuxarıda göstərilən məqamlar 2021-ci ilin martında keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinin Birgə Bəyannamə layihəsində də aydın şəkildə öz əksini tapacaqdır", - deyən nazir qeyd edib ki, münaqişələr, uzunsürən xarici işğal və cavabdehliyin olmaması sülh və təhlükəsizliyi təhdid altına alır. Cənubi Qafqazda və ümumilikdə bütün Avropada sülh və təhlükəsizlik üçün təhdid olan Ermənistan tərəfindən Azərbaycan ərazilərinin qeyri-qanuni işğalı sona çatıb. Azərbaycan 30 il yaxındır ki, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini açıq-aşkar pozan Ermənistanın işğalı altında olan əraziləri üzərində nəzarəti bərpa etdi. Birləşmiş Millətlər Təşkilatının əsas orqanları tərəfindən qəbul edilmiş qərarların icrası beynəlxalq hüquq qaydalarının səmərəli və məsuliyyətli şəkildə həyata keçirilməsinin əsas yoludur.

Azərbaycan öz suveren ərazisində hərəkət edib və suverenliyi, ərazi bütövlüyü, habelə mülki əhalisinə qarşı yönələn ciddi təhlükəni dəf etmək üçün zəruri olan adekvat və mütənasib tədbirlər görüb. Azərbaycan Silahlı Qüvvələri beynəlxalq humanitar hüquqa ciddi şəkildə riayət edərək, yalnız legitim hərbi hədəflərə qarşı güc tətbiq edib.

Hücumların miqyası və ardıcıllığı, habelə Ermənistan tərəfinin hərbi əməliyyatlardan əvvəl və onların gedişatında verdiyi bəyanatlar Azərbaycanın mülki əhalisinə və mülki infrastrukturuna qarşı hücumların əvvəlcədən planlaşdırıldığını və Ermənistanın cinayətkar hərbi strategiyasının bir hissəsi kimi həyata keçirildiyini bir daha sübut edib.

"Azərbaycan Ordusu tərəfindən azad edilmiş ərazilərə gedərkən mədəni mülkiyyət də daxil olmaqla, bu ərazilərin nə dərəcədə dağıdıldığının bir daha şahidi olduq. Məsələn, işğala qədər on minlərlə azərbaycanlının yaşadığı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərində demək olar ki, bütün bina və infrastruktur yerləyeksan edilib. Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr tarixli birgə Bəyanatına uyğun olaraq, Ermənistanın tərk etdiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarında da vəziyyət fərqli deyil. Həmin əraziləri tərk edən erməni hərbçiləri və burada məskunlaşmış şəxslər bu rayonlardan qovulmuş azərbaycanlı əhalisinə məxsus evləri, məktəbləri və digər ictimai infrastrukturu qəsdən və heç bir fərq qoymadan dağıtmışlar. Meşələr yandırılıb, ətraf mühitə bərpaolunmayan zərər vurulub, dini abidələr talan edilib. Bu hərbi cinayətləri törədənlərin hər biri məsuliyyətə cəlb olunmalıdır.

Ümid edirik ki, 44 günlük müharibənin başa çatmasından sonra yaranmış vəziyyət münaqişədən sonrakı yenidənqurma və bərpa, eləcə də dinc birgəyaşayışın bərpa olunması mərhələsi kimi xarakterizə olunacaq. Üçtərəfli Bəyanat Ermənistanla Azərbaycan arasında təxminən otuz ilə yaxın davam edən silahlı münaqişəyə son qoyulması, məcburi köçkünlərin öz evlərinə qayıtması və nəhəng iqtisadi potensialın reallaşması üçün zəmin yaratmışdır. Regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələrinin yenidən bərpa olunması nəzərdə tutulur. Bu, regionumuzun Asiya və Avropa arasında ticarətdəki rolunu gücləndirməsinə imkan yaratacaqdır.

İnkişaf və əməkdaşlıq üçün yeni imkanlar yaranır və GUAM yeni reallıqlardan faydalana bilər. Bu xüsusda Azərbaycan bölgədəki sülh və sabitliyə töhfə vermək üçün GUAM-a üzv dövlətlər də daxil olmaqla tərəfdaşları ilə ayrı-ayrılıqda işləməyə hazırdır, - deyən C.Bayramov vurğulayıb ki, Azərbaycanın təklif edə biləcəyi çox şey var və artıq bütün tərəfdaşlarını müxtəlif imkanlarla təmin edir. Azərbaycan Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, o cümlədən investorlar üçün əlverişli şəraitə malik olan Ələt Azad İqtisadi Zonası ilə bütün bölgənin tranzit tutumunu artırmağı hədəfləyən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Lapis Lazuli nəqliyyat marşrutu, habelə "Şimal-Cənub", "Cənub-Qərb" və "Şimal-Qərb" ticarət yollarının inkişafına praktik töhfəsini davam etdirir.

İnşaat işlərinin açılışından dörd il yarım sonra Trans-Adriatik boru kəməri kommersiya əməliyyatlarına başlamışdır. Bu inkişaf bizə "Cənub qaz dəhlizi"-nin uğurlarını artırmağa imkan verir. Qaz tədarükünün coğrafiyasını genişləndirmək məqsədilə Aİ ilə yaxından işləyirik. Bu layihə enerji təhlükəsizliyini artırmaqla yanaşı, Avropada sıfır emissiya enerji sisteminə keçiddə də mühüm rol oynayacaqdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanın bölgə ölkələrini bir araya gətirən və ortaq firavan gələcək qurmağa imkan verən təşəbbüsləri regional əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün göstərdiyi maraq və potensialın ən yaxşı nümunəsidir. Azərbaycan gələcək əməkdaşlığa da hazırdır.

"Biz beynəlxalq öhdəliklərə, xüsusilə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsi ilə bağlı öhdəliklərə yalnız ortaq təəhhüd və tam əməl etməklə dinc, firavan və sabit gələcəyə nail ola bilərik", - deyə nazir vurğulayıb.

İclasda həmçinin təşkilatın Baş katibi, eləcə də üzv ölkələr Azərbaycanın uzun illərdir ki, işğal altında olan ərazilərinin azad edilməsi məsələsinə toxunaraq, bu xüsusda beynəlxalq hüququn norma və prinsiplərinin, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmətin təmin edilməsinin vacibliyini vurğuladılar.

Tədbirin yekununda hazırkı iclasın protokolu və 4 qərar (sahəvi işçi qruplarına əlaqələndirici ölkələrin təsdiqi; kommunikasiya strategiyası və bəyanat, habelə bəyannamələrin hazırlanma qaydaları; 2021-ci il üçün büdcənin təsdiqi; sədrliyin Gürcüstana təhvil verilməsi) qəbul olunub. İclasın sonunda növbəti il üzrə təşkilata sədrlik Gürcüstana təhvil verilib.

# İtaliya Qarabağda yeni infrastruktur qurmaqda yaxın köməkçimizdir

Əvvəli 1-ci səh.

Dünyada hökm sürən koronavirus pandemiyası əsl dostların münasibətlərinə mane ola bilmir. Belə ki, Azərbaycan Vətən müharibəsində Qələbə qazandıqdan sonra ölkəmizə ilk nümayəndə heyəti İtaliyadan gəldi. Dekabr ayında əvvəlcə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Bundan az sonra eləcə də İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin dövlət katibi, ölkələrimiz arasında İqtisadi Əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın həmsədri Manlio Di Stefanonun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfər etdi.

Hər iki nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev İtaliya ilə Azərbaycan arasında əlaqələrin davamlı olduğunu vurğulayıb. Belə ki, bu əlaqələr siyasi, iqtisadi, eləcə də digər sahələrdə uğurla inkişaf edir. Azərbaycanın birinci ticarət tərəfdaşının İtaliya olduğunu qeyd edən dövlət başçısı iki ölkə arasında ticarət dövriyyəsinin keçən il 6 milyard dollara çatdığını bildirib. Bunun böyük hissəsi enerji resurslarına aiddir. Lakin gələcək illərdə qeyri-neft sektorunda da əməkdaşlıq və tərəfdaşlığın inkişafı üçün potensial, həmçinin məqsəd var. Odur ki, yaxın vaxtlarda Azərbaycanda İtaliyanın daha çox şirkəti fəaliyyətə başlayacaq. Prezident bildirib ki, buraya ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizin bərpasına dair böyük planlar da daxildir. Yəni yeni yolların, dəmir yolu xətlərinin, hava limanlarının, məktəb və xəstəxanaların inşasına, digər infrastrukturun yaradılmasına ehtiyac var.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə artıq start verilib. İlk müqavilələr qardaş Türkiyənin şirkətləri ilə bağlanıb. Növbəti müqavilə isə İtaliya şirkətli ilə imzalanıb. Bu da təbiidir. Çünki İtaliya Azərbaycanın yaxın dostudur. Çoxillik diplomatik münasibətlərin mövcudluğu dövründə və xüsusilə də Vətən müharibə zamanı bunun şahidi olduq. Xatırladaq ki, İtaliyanın millət vəkilləri Azərbaycanda səfərdə olarkən Ağdama və Gəncəyə də gediblər, erməni faşizminin torpaqlarımızda törətdiyi vəhşiliyi öz gözləri ilə görüblər.

Beləliklə, Azərbaycan-İtaliya münasibətləri hər sahədə uğurla davam edir. Bu günlərdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC ilə İtaliyanın "Ansaldo Energia" şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Videokonfrans formatında imzalanan müqaviləyə əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirəcək.

Bir daha qeyd edək ki, Ermənistanın 30 il ərzində işğal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında bütün infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyalar, ötürücü xətlər dağıdılaraq yerləyeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər ərazilərdə isə erməni vandalları bütün enerji infrastrukturunu dağıdıblar, avadanlıqların xeyli hissəsini daşıyıb aparıblar, qalanlarını isə partladıb, yaxud yandırıblar.

Beləliklə, dost İtaliya Qarabağda yeni enerji infrastrukturu qurmaqda dəstəkçimizdir.

Xatırladaq ki, İtaliya şirkətləri indiyədək Azərbaycanın həyata keçirdiyi neft-qaz və ixrac layihələrində fəal iştirak ediblər. "Əsrin müqaviləsi" çərçivəsində aparılan tikinti-quraşdırma işlərində onların da payı olub. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin 11 səhmdarından biri İtaliyanın "Eni" şirkətidir. "Eni"nin orada 5 faiz iştirak payı var.

"Cənub qaz dəhlizi" isə iki ölkə arasında əlaqələri daha da möhkəmləndirib. Dəhlizin sonuncu seqmenti olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tikintisi artıq uğurla yekunlaşıb. Bu kəmər Azərbaycan qazını Türkiyə-Yunanıstan sərhədindən başlayaraq İtaliyaya çatdıracaq. Bu da o deməkdir ki, Azərbaycan və İtaliya gələcək onilliklər ərzində enerji sahəsində daha yaxın tərəfdaş olacaqlar.

İndi artıq iki ölkə arasında əməkdaşlığın daha da genişlənməsi üçün yeni perspektivlər açılıb. Dostlarımız mənfur düşmənin xarabalığa çevirdiyi ərazilərimizdə tamamilə yenidən infrastruktur qurmağın çətinliyini bizimlə bölüşürlər. Əsl dost məhz çətin gündə bəlli olar. Prezidentimiz də bunu vurğulayıb. İtaliya dostumuz olduğunu bir daha göstərdi. Biz dostluğu qiymətləndirən xalqıq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan və Türkiyə xarici işlər nazirləri arasında telefon danışığı olub

Dekabrın 28-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlər 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrası və bölgədə mövcud olan vəziyyəti müzakirə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Ermənistanın hüquq mühafizə orqanları bu ölkə hərbçilərinin törətdikləri cinayətlərlə bağlı beynəlxalq hüquqa uyğun araşdırma aparmalıdır

Əvvəllər məlumat verildiyi kimi, bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində Azərbaycan və Ermənistan hərbi qulluqçuları tərəfindən törədilməsi güman edilən, döyüş əməliyyatları zamanı həlak olmuş hərbçilərin, mülki şəxslərin meyitləri üzərində təhqiredici hərəkətlər edilməsi, habelə əsir götürülmüş hərbçilər və mülki vətəndaşlarla qeyri-insani rəftarı əks etdirən çoxsaylı videogörüntülər yayılıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu və Hərbi Prokurorluq tərəfindən aparılmış təhlillər zamanı saxta videoçarxlar istisna olunaraq reallığı əks etdirməsinə ciddi şübhələr yaranan videogörüntülər, o cümlədən bəzi hallarda əsir düşmüş şəxslərin baş və boğaz nahiyəsinin kəsilməsi yolu ilə qətlə yetirilməsi faktlarının hər biri üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Həmin hadisələr üzrə Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən cinayət işlərinin başlanaraq təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması və digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin davam etdirilməsi barədə iki dəfə rəsmi məlumat verilməsinə baxmayaraq, qarşı tərəfdən həmin faktlarla bağlı hər hansı açıqlamanın verilməməsi onu təsdiq edir ki, bu cinayətlər Ermənistan hüquq mühafizə orqanları tərəfindən araşdırılmır və Ermənistan rəhbərliyinin bundan sonra da siyasi iradə nümayiş etdirməyərək cinayət törətmiş şəxslərin cəzalandırılması istiqamətində hər hansı bir addım atmaq niyyəti yoxdur.

Döyüş əməliyyatları zamanı həlak olmuş Azərbaycan hərbi qulluqçularının meyitləri üzərində təhqiredici hərəkətlər, əsir düşmüş azərbaycanlı hərbçilərlə qeyri-insani rəftarı əks etdirən videogörüntülər, mülki Azərbaycan vətəndaşlarının öldürülməsi və onlara xəsarət yetirilməsi faktları ilə bağlı Ermənistan hüquq mühafizə orqanları tərəfindən tədbir görülməsi, üzərinə düşən beynəlxalq öhdəliklərin yerinə yetirilməsi, cinayət faktları üzrə açıq və ədalətli araşdırma aparılması üçün Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən beynəlxalq təşkilatlara müraciət edilib.

Hazırda Azərbaycan hərbi qulluqçularına qarşı qanunazidd hərəkətlər, 101 mülki Azərbaycan vətəndaşının öldürülməsi, 423 nəfərə xəsarət yetirilməsi ilə bağlı bütün cinayət işləri üzrə Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən zəruri və intensiv istintaq hərəkətləri aparılır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, işini şəffaf və açıq quran Azərbaycan Respublikası Baş Prokurorluğu bir daha bəyan edir ki, təqsirli şəxslərin müəyyən edilərək mövcud hüquqi mexanizm və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmasından ötrü mümkün olan bütün tədbirlər görülməklə ictimaiyyətə bundan sonra da geniş məlumat veriləcək.

Baş Prokurorluq hesab edir ki, Ermənistan hüquq mühafizə orqanları öz ölkəsinin hərbçiləri tərəfindən törədilmiş cinayət hadisələri ilə bağlı beynəlxalq hüquq normalarının tələblərinə uyğun olaraq araşdırma aparmalı və dünya ictimaiyyətinə ətraflı məlumat verməlidir.

# Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin qalıqlarının ordumuza hücumu ilə bağlı məlumat yayıb

Dekabrın 27-də saat 15:30 radələrində Azərbaycanın Xocavənd rayonunun Ağdam (Akaku) kəndi istiqamətində qanunsuz erməni silahlı qrupu və ya ərazidə qalmış Ermənistan silahlı qüvvələrinin qalıqlarından ibarət 6 nəfərlik dəstə Azərbaycan Ordusunun bölmələrinə hücum edib. Nəticədə bir nəfər hərbi qulluqçumuz - əsgər Qənbərov Elmir Rayil oğlu şəhid olub, əsgər Əliyev Emin Süleyman oğlu isə yaralanıb. İlkin tibbi yardım göstərildikdən sonra yaralı hərbi qulluqçumuz tibb müəssisəsinə təxliyə edilib, həyatı üçün heç bir təhlükə yoxdur.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görülən tədbirlər nəticəsində qanunsuz erməni hərbi dəstəsinin altı üzvü məhv edilib.

Bu kimi hal təkrarlanarsa, Azərbaycan Ordusu tərəfindən qəti tədbirlər görüləcək.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə dərin hüznlə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

# Şəhidə ehtiram ən ali vətənpərvərlikdir



O ordu qalib və güclüdür ki, onun müzəffər Ali Baş Komandanı, vətənpərvər və peşəkar şəxsi heyəti vardır. Vətən müharibəsində qazandığımız tarixi qələbənin əsasında da məhz bu amillər dayanır. Ötən əsrin 70-ci illərindən Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan milli hərbi kadr hazırlığı və ordu quruculuğu strategiyası bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İqtisadi və siyasi qüdrətini günbəgün artıran Azərbaycanda dövlət-xalq-ordu birliyi, möhkəm həmrəylik və güclü iradə vardır. Vətən müharibəsində qazanılan tarixi qələbə həm də milli ruhun, xalq-lider birliyinin daha bir ifadəsi oldu. Ölkə Prezidentinin də dediyi kimi: "Azərbaycan xalqı öz birliyini göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 28-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tədbirdə iştirak edib.

Dövlət və hökumət nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri və şəhidin ailə üzvləri tədbirdə iştirak ediblər.

Şəhid olan hərbi qulluqçumuz Gülməmmədov Amin Mais oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin sədri şəhidimizin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu kəndə yola salındı.

Ali Məclisin sədri şəhidin ailə üzvləri ilə görüşdü, onlara başsağlığı verdi.

# Müsbət dinamika arxayınlıq yaratmamalıdır

Əvvəli 1-ci səh.

## Dövlət mümkün olan bütün tədbirləri həyata keçirir

Dünya ölkələri vətəndaşlarını bu virusdan qorumaq üçün hazırda pandemiyaya qarşı ən effektiv vasitə olan karantin rejiminin tətbiqini həyata keçirməyi üstün tuturlar. Azərbaycan da bu üsulu tətbiq edən ölkələr sırasındadır. COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən Azərbaycanda bütün istiqamətlər üzrə qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı. Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından koronavirusun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə zəruri qabaqlayıcı tədbirlərə start verildi. Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq, xəstəlik ölkəmizin sərhədlərinə yaxınlaşmazdan əvvəl hökumət problemin ciddiliyini anladı və dünyada öz sərhədlərini qapadan, bütün təhsil müəssisələrini bağlayan, kütləvi tədbirləri, idman yarışlarını təxirə salan ilk ölkələrdən biri oldu. Virusun geniş yayılmasının qarşısının alınması məqsədi ilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Dövlət başçısının tapşırığına uyğun olaraq, ilk növbədə, ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı. Xəstəlik diaqnozunun qoyulması üçün əhəmiyyətli olan laboratoriyaların sayı 8 dəfə artırıldı. Bölgələri də əhatə etməklə ölkədə 10 modul tipli xəstəxana quraşdırıldı, COVID xəstələri üçün 10 mindən çox çarpayı yeri yaradıldı. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edildi.

Birbaşa ölkə rəhbərinin ciddi nəzarəti və tapşırıqlarına əsasən, pandemiyaya qarşı həyata keçirilən mühüm çevik və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi, kütləvi yoluxmanın qarşısını aldı. Koronavirusla əlaqədar ilkin mərhələdə dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkəni böyük fəlakətdən qorudu.

Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən dəstək göstərilərək, maddi və sosial yardımlar edildi. Dövlət vətəndaşlarını qorumaq üçün mümkün olan bütün tədbirləri həyata keçirir. Ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək lazımi qərarlar qəbul olunur.

Son aylar koronavirusa yoluxma hallarının kəskin artması ilə əlaqədar Nazirlər Kabineti yanında Operativ Qərargah ölkə üzrə xüsusi karantin rejimini yanvarın 31-dək uzadıb. Yanvarın 18-dək isə bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilib.

## Kompleks tədbirlər nəticəsində virusa yoluxma sayı azalır

Tətbiq edilən karantin rejimi və digər koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində son günlər ölkəmizdə yoluxma hallarında azalma müşahidə olunmaqdadır. Eləcə də xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını ötür ki, bu da səhiyyə sisteminin yükünün azalmasına zəmin yaradır.

Lakin koronavirusla bağlı statistik göstəricilərdə müsbət dinamikanın olması bizi arxayın etməməlidir. Çünki koronavirusa yoluxanların sayı təkrar artarsa, yenidən əvvəlki qorxulu vəziyyət yarana bilər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanovun sözlərinə görə, epidemik prosesin içərisində dalğa adlandırılan ayrı-ayrı piklər olur. Həmin proses başlayanda əvvəlcə yoluxma sayları artır. Bu dövrdə sağalanların sayı az olur. Müəyyən müddətdən sonra epidemiya özünün pik həddinə çatır. Proses bir müddət pik vəziyyətində qalır. Sonra yoluxanların sayında azalma müşahidə olunur: "Keçmişdə yoluxub xəstələnənlər müalicə olunub sağaldıqları üçün onların sayı artır. Bu, epidemik prosesin qanunauyğunluğudur, hazırda biz onu müşahidə edirik. Bir neçə gün öncə ölkəmizdə koronavirusa yoluxanların sayı 4 minin üzərində idi. Təxminən iki həftə rəqəmlər belə qaldı. Bu, pik vəziyyəti idi. Hazırda isə getdikcə azalmalar müşahidə edilir. Burada görülmüş əks-epidemik tədbirlərin böyük əhəmiyyəti var. Vətəndaşların qaydalara riayət etməsi, müəyyən qadağaların tətbiq olunması, müxtəlif müəssisələrin bağlanması, iş rejiminin məhdudlaşdırılması və s. kompleks tədbirlər nəticəsində yoluxma saylarında azalmalar, bəzən isə kəskin enmələr müşahidə edilir".

A.Qurbanov bildirib ki, müsbət dinamika vətəndaşları koronavirusla mübarizədən çəkindirməməli, əksinə, görünməz düşmənlə daha qətiyyətlə vuruşmağa sövq etməlidir. Çünki hazırda qaydalara əməl etməkdən başqa güclü silahımız yoxdur.

## Qaydalara əməl etmək hər kəs üçün vacibdir

Lakin təəssüf ki, hələ də vətəndaşlar arasında təhlükəli xəstəliyə qarşı məsuliyyətsizlik və biganəlik halları baş verir. Hətta evdə müalicə olunan koronaviruslu xəstələr qaydalara riayət etmədən yaşayış yerindən çıxıb digərlərini yoluxdurmaqdan da çəkinmirlər. Odur ki, COVID-19 infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimi ilə əlaqədar aktiv koronavirus xəstələrinin profilaktikasına nəzarət tədbirləri davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, dekabrın 26-27-də respublika ərazisində 9 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb və yaşadıqları evlərə qaytarılıb. 8 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

Sərt karantin rejiminin tətbiq edildiyi şəhər və rayonların giriş və çıxışlarında quraşdırılmış xüsusi postlarda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir. Yoxlamalar nəticəsində müxtəlif bölgələrdən karantin postlarını keçməyə cəhd edən koronavirus xəstələri, qanunsuz olaraq rayonlararası sərnişindaşıma fəaliyyəti ilə məşğul olan sürücülər də aşkarlanmaqdadır.

Unutmayaq ki, pandemiyaya qarşı görülən tədbirlərin səmərəli olması vətəndaşların qaydalara əməl etmələrindən asılıdır. Mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Qaydaları pozan insanlar daha məsuliyyətli davranıb nizam-intizama riayət etsələr, pandemiyanı nəzarətdə saxlamaq mümkün olacaq.

Kütləvi peyvəndlənmə tətbiq olunana qədər bu bəladan qorunmağın ən effektli yolu sərt karantin və izolyasiyadır. Vətəndaşlar özlərini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, bəsit gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman yoluxma zəncirini qırmağa kömək edə, virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilsinlər:

*(Əvvəli qəzetin 26 dekabr tarixli nömrəsində)*

Yusifov Knyaz Yusif oğlu - mayor
Zamanov Sahil Vahid oğlu - mayor
Zeynalov Elman Zöhrab oğlu - mayor
Zeynalov Əfqan Əlihəsən oğlu - mayor
Zeynalov Kamil Vaqif oğlu - mayor
Zeynalov Rauf Çingiz oğlu - mayor
Zərbəliyev Araz Vahid oğlu - mayor
Zöhrabov Tariyel Fəryaz oğlu - mayor
Abbasov Rafiq İttifaq oğlu - kapitan
Abbasov Rahid Məsgən oğlu - kapitan
Abbasov Yəhya Abbasəli oğlu - kapitan
Abbaszadə Məiş Sadiq oğlu - kapitan
Abdıyev Orxan Oktay oğlu - kapitan
Abdullayev Amil Hümbət oğlu - kapitan
Abdullayev Bəşir Asif oğlu - ədliyyə kapitanı
Abdullayev Elçin Şakir oğlu - kapitan
Abdullayev Elman Elxan oğlu - kapitan
Abdullayev Məhəmməd Oruc oğlu - kapitan
Abdullayev Orxan Yusif oğlu - kapitan
Abdullayev Ramil Mirzəhüseyn oğlu - kapitan
Abdullayev Rasim Vasif oğlu - kapitan
Abdullayev Sənan Qələmşah oğlu - kapitan
Abdullayev Turab Eldar oğlu - kapitan
Abdullayev Zaur Rauf oğlu - kapitan
Abdurəhmanov Rəhman Salman oğlu - kapitan
Ağabalayev Qadir Malik oğlu - kapitan
Ağarzayev Namik Şərik oğlu - kapitan
Ağayev Nemət Mir Tahir oğlu - kapitan
Ağazadə İlkin Adil oğlu - kapitan
Axiyev Elşən Hidayət oğlu - kapitan
Axundov Həsən Seyran oğlu - kapitan
Allahverdiyev Elmar Saleh oğlu - kapitan
Aslanov Elmin Məhərrəm oğlu - kapitan
Babayev Fuad Sədrəddin oğlu - kapitan
Babayev Mahmud Məhəmməd oğlu - kapitan
Babayev Rəşad Qərib oğlu - kapitan
Babayev Şamil Baloğlan oğlu - kapitan (ölümündən sonra)
Babazadə İlyas Əhmədağa oğlu - kapitan
Bağırlı Qəzənfər Kərim oğlu - kapitan
Bağırov Mahmud Şahin oğlu - kapitan
Baxışəliyev Anar Mübariz oğlu - kapitan
Baxşəliyev Nizami Füzuli oğlu - kapitan
Balakişiyev Elşən Süleyman oğlu - kapitan
Bayramov Amil Niyazi oğlu - kapitan
Bayramov Samir Sahib oğlu - kapitan
Begiyev Emin Ehtibar oğlu - kapitan
Bədəlov Nicad Mehman oğlu - kapitan
Bədəlov Taleh Məmmədhüseyn oğlu - kapitan
Bədrəddinli Valeh Xaləddin oğlu - kapitan
Bəhmənov Elçin Bayram oğlu - kapitan
Bəxtiyarov Rövnət Şahbaz oğlu - kapitan
Cabbarov Behbud Murtuz oğlu - kapitan
Cabbarov Elnur Səxavət oğlu - kapitan
Cabbarov Seymur İlham oğlu - kapitan (ölümündən sonra)
Cahangirov Pərvin Əhəd oğlu - kapitan
Cavadov Cəlil Ağaddin oğlu - kapitan (ölümündən sonra)
Cəfərli Həmid Kərim oğlu - kapitan (ölümündən sonra)
Cəfərov Aqşin Mahir oğlu - kapitan
Cəfərov Aslan Şahmirzə oğlu - kapitan
Cəfərov Fizuli Qismət oğlu - kapitan
Cəfərov Xəzər Qalib oğlu - kapitan
Cəfərov Səttar Eyvaz oğlu - kapitan
Çobanov Samir Natiq oğlu - kapitan
Dadaşov Ağadadaş Azər oğlu - kapitan
Dadaşov Tural Alxan oğlu - kapitan
Eynullayev Ruslan Həzrətəli oğlu - kapitan
Əbilov Vurğun İdris oğlu - kapitan
Əhmədov Fərhad Cəbrayıl oğlu - kapitan
Əhmədov Rauf Rafik oğlu - kapitan
Əhmədov Tural Bəylər oğlu - kapitan
Əkbərov Elnur Vahid oğlu - kapitan
Əkbərov Orxan Aslan oğlu - kapitan
Əkbərov Taha Əlövsət oğlu - kapitan
Ələkbərli Ələkbər Ələsgər oğlu - kapitan
Ələkbərov Xəyyam Elxan oğlu - kapitan
Ələkbərov Rahil Tağı oğlu - kapitan
Əliquliyev Elçin Arif oğlu - kapitan
Əlisazadə Sənan Dadaş oğlu - kapitan
Əliyev Anar Məzahir oğlu - kapitan
Əliyev Elgün Rakif oğlu - kapitan
Əliyev Elvin Məhərrəm oğlu - kapitan
Əliyev Fəzail Cahan oğlu - kapitan (ölümündən sonra)
Əliyev Natiq Tofiq oğlu - kapitan
Əliyev Rüstəm Fərhad oğlu - kapitan
Əliyev Tural Maşallah oğlu - kapitan
Əliyev Vahab Vaqif oğlu - kapitan
Ənvərli Sahil Əli oğlu - kapitan
Əsədov Əlibala Azad oğlu - kapitan
Əsədov Kazım Hörmət oğlu - kapitan
Əsədov Pərvin Namid oğlu - kapitan
Əsgərli Səddam İsrafil oğlu - kapitan
Əsgərov Əsgər Süleyman oğlu - kapitan
Əsgərov Mərhəmət İsmayıl oğlu - kapitan
Əsgərov Mübariz Tahir oğlu - kapitan
Əsgərov Samid Gülmalı oğlu - kapitan (ölümündən sonra)
Əsgərov Samir Bahadur oğlu - kapitan
Əyyubov Taleh Fərid oğlu - kapitan
Fərzəliyev Dilman Abbasəli oğlu - kapitan
Fətəliyev Fərid Səməd oğlu - kapitan
Fətəliyev Qənbər Əkbər oğlu - kapitan
Gülüyev Zaur Rusxət oğlu - kapitan
Gülverdiyev Təhmasib Mirzəkişi oğlu - kapitan
Hacımuradov Səbrulla Hacımurad oğlu - kapitan
Hacıyev Arif Kazım oğlu - kapitan
Hacıyev Hikmət Şubay oğlu - kapitan (ölümündən sonra)
Hacıyev Nicat Elçin oğlu - kapitan
Hacıyev Vüqar Sabir oğlu - kapitan
Haqverdiyev İlham Mamed oğlu - kapitan
Haqverdiyev Rüstəm Şairağa oğlu - kapitan
Hasılov Elşad Rafiq oğlu - kapitan
Həmidov Mahur Mahir oğlu - kapitan
Həsənli Naib İmdad oğlu - kapitan
Həsənov Atakişi İmamqulu oğlu - kapitan
Həsənov Babək Telman oğlu - kapitan
Həsənov Cavid Mehrab oğlu - kapitan
Həsənov Ceyhun Aydın oğlu - kapitan (ölümündən sonra)
Həsənov Elvin Qeybulla oğlu - kapitan
Həsənov İlkin İlham oğlu - kapitan
Həsənov İntiqam Həsən oğlu - kapitan
Həsənov Sakit Əzim oğlu - kapitan
Həsənov Səməd Şəfayət oğlu - kapitan
Həsənov Vüsal Oktay oğlu - kapitan
Həşimov Fərrux Mirzəmməd oğlu - kapitan-leytenant (ölümündən sonra)
Hətəmov Telman İsmayıl oğlu - kapitan-leytenant
Hümmətov Elnur Şirvan oğlu - kapitan
Hümmətov Yusif Nidayət oğlu - kapitan
Hüseynalıyev Hüseyn Vidadi oğlu - kapitan
Hüseynli Əfran Əflatun oğlu - kapitan
Hüseynov Bayram Habil oğlu - kapitan
Hüseynov Elçin Aydın oğlu - kapitan
Hüseynov Əli Elxan oğlu - kapitan
Hüseynov Hüseyn Həsənqulu oğlu - kapitan
Hüseynov Xəyal Matif oğlu - kapitan
Hüseynov İsa İbrahim oğlu - kapitan
Hüseynov Qalib İlham oğlu - kapitan
Hüseynov Mahir Zeynalabdin oğlu - kapitan
Hüseynov Rasim Xalıq oğlu - kapitan
Hüseynov Samir Şahismayıl oğlu - kapitan
Hüseynov Səbuhi Volodya oğlu - kapitan
Hüseynov Şahnur Şahin oğlu - kapitan (ölümündən sonra)
Hüseynov Şirbala Hüseynbala oğlu - kapitan (ölümündən sonra)
Hüseynov Teymur Məhəmməd oğlu - kapitan
Xanmədov Samir Nazir oğlu - kapitan
Xeyirov Şamxal Xürşüd oğlu - kapitan
Xəlilov Elçin İsmayıl oğlu - kapitan
Xəlilov Nurlan Qabil oğlu - kapitan
Xəlilov Rauf Cəbrayıl oğlu - kapitan
İbadov Tahir Allahverdi oğlu - kapitan
İbrahimli Firudin Əli oğlu - kapitan
İbrahimov Vüqar Rəşid oğlu - kapitan
İbrahimov Zəfər Ziya oğlu - kapitan
İmamhüseynov Emin Həmid oğlu - kapitan
İmanov Zaur Əsədulla oğlu - kapitan
İslamov Aqil Əli oğlu - kapitan
İslamov Qurbanəli Məzahir oğlu - kapitan
İsmayılov Azər Əziz oğlu - kapitan
İsmayılov Bəhruz Əbülfət oğlu - kapitan
İsmayılov Nicat Əbülfəz oğlu - kapitan
İsmayılov Tofiq Valeh oğlu - kapitan
Kazımov Əlifağa Natiq oğlu - kapitan
Kəlbəliyev Asim Qabil oğlu - kapitan
Kəlov Razil Niftalı oğlu - kapitan
Kərimov Fikrət Namiq oğlu - kapitan
Kərimov Kənan Kərim oğlu - kapitan
Kərimov Rövşən Niyətqulu oğlu - kapitan
Qaffarov Eyvaz İlyas oğlu - kapitan
Qambayev Ənvər İbrahim oğlu - kapitan
Qarayev Elvin Telman oğlu - kapitan
Qarayev Vüqar Hüseyn oğlu - kapitan
Qasımlı Rəşad Məzahir oğlu - kapitan
Qasımov Rəşad Ağaxan oğlu - kapitan
Qayıbov Cavid Çingiz oğlu - kapitan
Qədimov Amil Şahalı oğlu - kapitan
Qədirov Orxan Çingiz oğlu - kapitan-leytenant
Qəhrəmanlı Rəhman İbrahim oğlu - kapitan
Qocayev Səxavət Natiq oğlu - kapitan
Quliyev Akif Xanbala oğlu - kapitan
Quliyev Anar Yavər oğlu - kapitan
Quliyev Asim Əfrasim oğlu - kapitan
Quliyev Bəxtiyar Şahin oğlu - kapitan
Quliyev Cavid Nazim oğlu - kapitan
Quliyev Malik Əlipənah oğlu - kapitan
Quliyev Rəşad Fikrət oğlu - kapitan
Quliyev Şəhriyar Mikayıl oğlu - kapitan
Quliyev Vüqar Vidadi oğlu - kapitan
Quliyev Vüsal Hüseyn oğlu - kapitan
Qurbani Qabil Qurban oğlu - kapitan
Qurbanov Elman Xanlar oğlu - kapitan
Qurbanov İlham Osman oğlu - kapitan
Qurbanov Mayis Muğbil oğlu - kapitan
Qurbanov Şamo Qabil oğlu - kapitan
Mahmudov Anar Zahid oğlu - kapitan
Manafov Vüqar İlham oğlu - kapitan
Mehdiyev Samir Valeh oğlu - kapitan (ölümündən sonra)
Mədətov Tofiq Fikrət oğlu - kapitan
Məhərrəmov Mərhəmət Məhəmmədiyyə oğlu - kapitan
Məlikov Aqil Niyaz oğlu - kapitan (ölümündən sonra)
Məlikzadə Zaur Əflatun oğlu - kapitan
Məmmədli Cəlal Səyyaf oğlu - kapitan
Məmmədov Anar Kərəm oğlu - tibb xidməti kapitanı (ölümündən sonra)
Məmmədov Anar Murad oğlu - kapitan
Məmmədov Asif Səlahəddin oğlu - kapitan
Məmmədov Ayaz Ələmşah oğlu - kapitan
Məmmədov Cəmil Fazil oğlu - kapitan
Məmmədov Elvin Qadir oğlu - kapitan
Məmmədov Elvin Rəsul oğlu - kapitan
Məmmədov Nicat Fəxrəddin oğlu - kapitan
Məmmədov Nurlan Qabil oğlu - kapitan
Məmmədov Ramil Tahir oğlu - kapitan
Məmmədov Rövşən Coşqun oğlu - kapitan
Məmmədov Samir Məmməd oğlu - kapitan
Məmmədov Şahin Böyükağa oğlu - kapitan
Məmmədov Vüsal Salamat oğlu - kapitan
Mərdanov Əli Məhəmmədəli oğlu - kapitan
Mikayılov Abdulhəlim Şahin oğlu - kapitan
Mirzəxanlı Bayram Əli oğlu - kapitan
Mirzəliyev Fərid Mahir oğlu - kapitan
Mirzəyev Amil Əlikram oğlu - kapitan
Muradov Elnur Namiq oğlu - kapitan
Muradov Məhsər Musa oğlu - kapitan
Musayev Rəşad Tahir oğlu - kapitan
Musayev Səddam Fəzail oğlu - kapitan
Mustafayev Amil Mustafa oğlu - kapitan
Mustafayev Vaqif Nemət oğlu - kapitan
Mustafayev Vüsal Azər oğlu - kapitan
Nadirov Elnur Haxverdi oğlu - kapitan
Namazov Fərman Elşad oğlu - kapitan
Nəbiyev Cavanşir Şirvan oğlu - ədliyyə kapitanı
Nəbiyev Cavid İslam oğlu - kapitan
Nəcəfov İlkin Misir oğlu - kapitan (ölümündən sonra)
Nəcəfov Nahid Səfərəli oğlu - kapitan
Nəcəfov Orxan Hüsaməddin oğlu - kapitan
Nəcəfov Vüqar Aydın oğlu - kapitan (ölümündən sonra)
Nəcəfov Yusif Məhərrəm oğlu - kapitan
Nəsibov Ərhan Şahmar oğlu - kapitan
Nəsibov İlqar Əhməd oğlu - kapitan
Novruzlu Toğrul Əli oğlu - kapitan
Novruzov Orxan Rasim oğlu - kapitan
Novruzov Vüsal Hümmət oğlu - kapitan
Nuralıyev Allahverən Mübariz oğlu - kapitan
Nuriyev Ramin Şahrza oğlu - kapitan
Orucov Müşfiq Fərhad oğlu - kapitan
Paşayev Elnur Həvasət oğlu - kapitan
Ramazanov Elvin Müşfiq oğlu - kapitan
Ramazanov Rəvvaq Əhmədağa oğlu - kapitan
Rəhimxanov Famil Fazil oğlu - kapitan
Rəhimov Seymur Dadaş oğlu - kapitan
Rüstəmli Taleh Nazim oğlu - kapitan
Rüstəmov İlham Calal oğlu - kapitan
Rüstəmov İlkin İlham oğlu - kapitan
Rzayev Elçin Bəxtiyar oğlu - kapitan
Sadiyev Ceyhun Zeynal oğlu - kapitan
Salahov Vaqif Əliyar oğlu - kapitan
Salmanlı Taleh Abasət oğlu - kapitan
Salmanov Ağadadaş Hətəm oğlu - kapitan
Seyfullayev Yədulla Əsəd oğlu - kapitan
Seyidli Mirfamil Azad oğlu - kapitan
Səfərov İlqar İlham oğlu - kapitan
Səfərov Şahin Sabutay oğlu - kapitan
Səfiyev Cəlal Nazim oğlu - kapitan
Səmədov Fərid Əlbaba oğlu - kapitan
Səmədov Sabir Məzahir oğlu - tibb xidməti kapitanı
Səmədov Ziya Hikmət oğlu - kapitan
Sultanov Rauf Yavər oğlu - kapitan
Süleymanov Ağasəf Elşən oğlu - kapitan
Süleymanov Rəhim Şaqil oğlu - kapitan
Süleymanov Zəka Balay oğlu - kapitan
Şabanov Etibar Əli oğlu - kapitan
Şahnəzərov Mirhüseyn Maqsud oğlu - kapitan
Şəfiyev Rüstəm İsa oğlu - kapitan
Şəfizadə Fariz Çingiz oğlu - kapitan
Şıxəliyev Ceyhun Fəxrəddin oğlu - kapitan
Şıxəliyev Səfyar Əlyar oğlu - kapitan
Şıxəlizadə Təbriz Aslan oğlu - kapitan
Şıxıyev Elmar Etibar oğlu - kapitan
Şikarov Nəcəf Şikar oğlu - kapitan (ölümündən sonra)
Şirinov Kənan Dilqam oğlu - kapitan
Şirinov Orxan Vidadi oğlu - kapitan
Şükürov Cavid İxtiyar oğlu - kapitan
Şükürov Rəşad Güləli oğlu - kapitan
Şükürov Şirin Bəhram oğlu - kapitan
Şükürzadə Səxavət Rəsul oğlu - kapitan
Tağıyev Cavid Aydın oğlu - kapitan
Tağıyev Samir Fizuli oğlu - kapitan
Talıblı Tərlan Ataxan oğlu - kapitan
Tapdıqov Asim Maarif oğlu - kapitan
Tarverdiyev Ramil Nazim oğlu - kapitan
Useynov Ceyhun Elşad oğlu - kapitan (ölümündən sonra)
Veysəlli Elşən Rövşən oğlu - kapitan
Vəliyev Rəfayıl Fərman oğlu - kapitan
Vəliyev Rəşad Elşən oğlu - kapitan
Vəliyev Şərif Şakir oğlu - kapitan
Yaqubov Yarəli Ənvər oğlu - kapitan
Yəhyayev Ziya Rövşən oğlu - kapitan
Yusifov Pərviz İlham oğlu - kapitan
Yusufov Nadir Pərviz oğlu - kapitan
Zeynalov Azad Rafiq oğlu - kapitan (ölümündən sonra)
Zeynalov Əli Nuru oğlu - kapitan
Zeynalov Toğrul Müşfiq oğlu - kapitan
Zeynalov Tural Ruslan oğlu - kapitan (ölümündən sonra)
Zəkiyev Röyal Zəki oğlu - kapitan
Zubairov Ruslan Rauf oğlu - kapitan
Zülfüqarov Ramin Eldar oğlu - kapitan
Abbasov Ağaqardaş İlham oğlu - baş leytenant (ölümündən sonra)
Abbasov Cümşüd Ədalət oğlu - baş leytenant
Abbasov Eldar Adil oğlu - baş leytenant
Abbasov Elvin Eldəniz oğlu - baş leytenant
Abbasov Əli Bəylər oğlu - baş leytenant
Abbasov Fərhad Əli oğlu - baş leytenant
Abbasov Müşfiq Tofiq oğlu - baş leytenant
Abdullayev Akif Abdulla oğlu - baş leytenant
Abdullayev Aqil Arzuman oğlu - baş leytenant
Abdullayev Ceyhun Feyzulla oğlu - baş leytenant
Abdullayev Emin Ramiz oğlu - baş leytenant
Abdullayev İbrahim Habil oğlu - baş leytenant (ölümündən sonra)
Abdullayev İsgəndər Novruz oğlu - baş leytenant
Abdullayev İsmayıl Səməd oğlu - baş leytenant
Abdullayev Nizami Eynulla oğlu - baş leytenant
Abdullayev Pərvin Dövlət oğlu - baş leytenant
Abdullayev Ramazan Səfərəli oğlu - baş leytenant
Abdullayev Rəhman Elşən oğlu - baş leytenant
Abdullayev Sərdar Əlimusa oğlu - baş leytenant
Abdulov Səyahət Namik oğlu - baş leytenant
Abışov Ziyal Arif oğlu - baş leytenant
Abiyev Arif Vidadi oğlu - baş leytenant
Abutalıbov Ramil Yaşar oğlu - baş leytenant
Ağalarov Kənan Kamil oğlu - baş leytenant
Ağamalı Anar İmamverdi oğlu - baş leytenant
Ağayev Abbas Dilşad oğlu - baş leytenant
Ağayev Araz Tofiq oğlu - baş leytenant
Ağayev Ceyhun Yadigar oğlu - baş leytenant
Ağayev Elmin Ağamalı oğlu - baş leytenant
Ağayev Elşən Xanağa oğlu - baş leytenant
Ağayev Kamal Şabanəli oğlu - baş leytenant
Ağayev Rəşad Azər oğlu - baş leytenant
Ağayev Süleyman Əhəd oğlu - baş leytenant
Ağayev Şahin Sehran oğlu - baş leytenant
Axundzadə Ruzi Məmməd oğlu - baş leytenant
Alışov Fariz Ələsgər oğlu - tibb xidməti baş leytenantı
Alıyev Fuad Bəkir oğlu - baş leytenant
Allahverdiyev Babək Bəxtiyar oğlu - baş leytenant (ölümündən sonra)
Allahverdiyev Sərvər Sərdar oğlu - baş leytenant
Aslanov Elmar Əsgər oğlu - baş leytenant
Aslanov Pərviz Eldar oğlu - baş leytenant
Aşurbəyov Aşurbəy Fazil oğlu - baş leytenant
Aydınov Xaqani Əziz oğlu - baş leytenant
Aydınov Zaur Asif oğlu - baş leytenant
Babayev Ayxan İlqar oğlu - baş leytenant
Babayev Elşən Elşad oğlu - baş leytenant
Babayev Rail Fazil oğlu - baş leytenant
Babayev Şakir Zəfər oğlu - baş leytenant
Babayev Təbriz Mehdi oğlu - baş leytenant
Babayev Tomas Zahid oğlu - baş leytenant
Babayev Vüsal Sübbuh oğlu - baş leytenant (ölümündən sonra)
Bağırlı Xətai Şadət oğlu - baş leytenant
Bağırlı İsmixan Famil oğlu - baş leytenant
Bağırlı Ramil Səftər oğlu - baş leytenant
Bağırov Rafiq Davud oğlu - baş leytenant
Bağırov Sabir Əliağa oğlu - baş leytenant
Bağırov Uğur Murtuz oğlu - baş leytenant
Bağıyev Bağı Mehmandar oğlu - baş leytenant
Baxışov Xalıq Baxış oğlu - baş leytenant
Baxşıyev Vaqif Eldar oğlu - baş leytenant
Balabəyli Elcan Vasif oğlu - baş leytenant
Balacayev İzzət Zakir oğlu - baş leytenant
Bayramov Elnur Üzeyir oğlu - baş leytenant
Bayramov Emin Akif oğlu - baş leytenant
Bayramov Murad Ədalət oğlu - baş leytenant
Behbudov Cavid Ədalət oğlu - baş leytenant
Bədəlov Ramil Əmirfət oğlu - baş leytenant
Bədəlzadə Daşdəmir Polad oğlu - baş leytenant
Bəşirov Etibar Məhərrəm oğlu - baş leytenant
Bəşirov Turxan Ərəstun oğlu - baş leytenant
Bəyalıyev Nurlan Valeh oğlu - baş leytenant
Bəylərov Toğrul Nurəddin oğlu - baş leytenant
Budaqov Şirxan Siyavuş oğlu - baş leytenant
Bünyadov Vüsail Hüseynağa oğlu - baş leytenant
Cavadlı Kamal Xaləddin oğlu - baş leytenant
Cavadzadə Cavid Əlibala oğlu - baş leytenant
Cəbiyev Yabir Nadir oğlu - baş leytenant
Cəfərli Orxan Rasim oğlu - baş leytenant
Cəfərov Xəyyam Kamil oğlu - baş leytenant
Cəfərov Möhsüm Əli oğlu - baş leytenant
Cənnətov Samir Cənnət oğlu - baş leytenant
Çernyavskiy Mixail Sergeyeviç - baş leytenant
Dadaşev Elmir İdris oğlu - baş leytenant
Dadaşzadə Mahir Qərib oğlu - baş leytenant (ölümündən sonra)
Daşdəmirov Qədir İsmayıl oğlu - baş leytenant
Dədəkişiyev Səlim Ağaxan oğlu - baş leytenant
Emil Mərdan oğlu - baş leytenant
Eminli Nihad Xalid oğlu - tibb xidməti baş leytenantı
Eminov Hilal Söhrab oğlu - baş leytenant
Eyubov Sərxan Ələmdar oğlu - baş leytenant
Eyvazlı Hümmət Eyvaz oğlu - baş leytenant
Eyvazov Elvin İsmayıl oğlu - baş leytenant
Əhədov Nəriman Süleyman oğlu - baş leytenant
Əhədov Orxan Niyazi oğlu - baş leytenant
Əhmədov Anar Vaqif oğlu - baş leytenant
Əhmədov İlqar Şükür oğlu - baş leytenant
Əhmədov Şahin Arzu oğlu - baş leytenant
Əhmədov Vüqar Təhməz oğlu - baş leytenant
Əhmədzadə Azad Rövşən oğlu - baş leytenant
Əhmədzadə Natiq Nadir oğlu - baş leytenant
Əkbərli Simral Həsən oğlu - baş leytenant
Ələkbərli Vüqar Qərib oğlu - baş leytenant
Ələkbərov Bəxtiyar Şahin oğlu - baş leytenant
Ələkbərov Hafiz Vazeh oğlu - baş leytenant
Ələkbərov Nizami Alim oğlu - baş leytenant
Ələkbərov Yusif Arif oğlu - baş leytenant
Ələmdarzadə Cavidan Mahir oğlu - baş leytenant
Ələsgərov Səbuhi Qabil oğlu - baş leytenant
Ələsgərov Ümüd Şirvani oğlu - baş leytenant
Əlibəyov Rizvan Vidadi oğlu - baş leytenant
Əlimov Elvin Nəsrəddin oğlu - baş leytenant (ölümündən sonra)
Əlisoy Əli İqbal oğlu - baş leytenant
Əliyev Anar Əlihüseyn oğlu - baş leytenant
Əliyev Azər Fəzail oğlu - baş leytenant
Əliyev Bəxtiyar Məmməd oğlu - baş leytenant
Əliyev Bünyad Əjdər oğlu - baş leytenant
Əliyev Elvin Məhəbbət oğlu - baş leytenant
Əliyev Əli Həsən oğlu - baş leytenant
Əliyev Fəzli Kamil oğlu - baş leytenant
Əliyev Habil İslam oğlu - baş leytenant
Əliyev Hikmət Şahin oğlu - baş leytenant
Əliyev Xaqani Əlisurət oğlu - baş leytenant
Əliyev İlqar Xanlar oğlu - baş leytenant
Əliyev İsa Nurəddin oğlu - baş leytenant
Əliyev Kamran Fikrət oğlu - baş leytenant
Əliyev Mehman Musa oğlu - baş leytenant
Əliyev Məğrur Möhtərəm oğlu - baş leytenant
Əliyev Nazim Şahin oğlu - baş leytenant
Əliyev Nicat Cavanşir oğlu - baş leytenant
Əliyev Nurlan Şahin oğlu - baş leytenant
Əliyev Pərvin Əli oğlu - baş leytenant
Əliyev Rabil Yaməddin oğlu - baş leytenant
Əliyev Sabir Şirinəli oğlu - baş leytenant
Əliyev Teymur İlqar oğlu - baş leytenant
Əliyev Ülvi Tahir oğlu - baş leytenant
Əliyev Vəli Məmməd oğlu - baş leytenant
Əliyev Vurğun Niftalı oğlu - baş leytenant
Əlizadə Ceyhun Natiq oğlu - baş leytenant
Əlizadə Elvin Mustafa oğlu - baş leytenant
Əlizadə Heydər Mikayıl oğlu - baş leytenant
Əlizadə Qorxmaz Arif oğlu - baş leytenant (ölümündən sonra)
Əmiraslanov Sənan Sahib oğlu - baş leytenant
Əmirov Samir Nəbi oğlu - baş leytenant
Əmrəliyev Səxavət İldırım oğlu - baş leytenant
Ərzumanlı Rahib Əmir oğlu - baş leytenant
Əsədov Elşən Şahin oğlu - baş leytenant
Əsədullayev Səid Ərəb oğlu - baş leytenant
Əsgərli Kamil Həsənqulu oğlu - baş leytenant
Əsgərov Mail Əkrəm oğlu - baş leytenant
Əsgərov Rauf Vaqif oğlu - baş leytenant (ölümündən sonra)
Əsgərov Samir Qabil oğlu - baş leytenant
Əsgərov Təbriz İlham oğlu - baş leytenant
Əsgərov Ülvü Rövşən oğlu - baş leytenant
Əsgərov Vüsal Ehman oğlu - baş leytenant
Manatın məzənnəsi ticarət tərəfdaşı olan ölkələrin valyutalarına qarşı fərqli istiqamətlərdə dəyişmişdir. İkitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərmişdir. 11 ayda manatın qeyri-neft ümumi ticarət çəkili nominal effektiv məzənnəsi 8.8%, real effektiv məzənnəsi isə 6.3% bahalaşmışdır. Qeyd edək ki, 2014-cü ilin sonundan bəri real effektiv məzənnə 29.5% ucuzlaşmışdır ki, bu da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə müsbət təsir göstərən amildir.

Monetar şəraitin həm pulun dəyəri, həm də pulun kəmiyyəti hesabına yumşaldılması cari ildə də davam etdirilmişdir.

2020-ci ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar pandemiya şəraitində iqtisadi aktivliyin dəstəklənməsi prioriteti ilə makroiqtisadi sabitliyin qorunması zərurəti arasında optimal balansın saxlanılmasına xidmət etmişdir. 2020-ci ildə faiz dəhlizinin parametrləri 8 dəfə müzakirə edilmiş, uçot dərəcəsi mərhələlərlə 7.5%-dən 6.25%-ə və faiz dəhlizinin yuxarı həddi 9.25%-dən 6.75%-ə endirilmişdir. Faiz dəhlizinin aşağı həddi isə 5.75% səviyyəsində dəyişməz saxlanılmışdır. Ümumilikdə, uçot dərəcəsi 2018-ci ilin əvvəlindən bəri 2.4 dəfə (15%-dən) azalmışdır.

Manatla pul bazası ilin əvvəlindən 7.1% artmışdır. İl ərzində pul təklifinə təsir göstərən başlıca amil dövlət büdcəsinin gəlir və xərclərindən asılı olaraq formalaşan vahid xəzinə hesabının dəyişimi olmuşdur. Mərkəzi Bank tərəfindən pandemiya şəraitində iqtisadiyyata zəruri nöqtəvi likvidlik dəstəyinin göstərilməsi də pul təklifinə təsir etmişdir. Ümumilikdə, pul siyasətinin dəyər baxımından yumşaldılmağa başlanıldığı 2018-ci ilin əvvəlindən bəri pul təklifi 52% artmışdır.

Pul siyasətinin yumşaldılması Mərkəzi Bankın depozit əməliyyatları və qısamüddətli notları üzrə faiz dərəcələrinin, eləcə də dövlət qiymətli kağızlarının gəlirliyinin azalması ilə müşayiət edilmişdir. Banklararası bazarda faizlər, habelə depozit və kredit faizləri risk premiyası ilə yumşalan monetar şərait arasında tarazlaşmışdır. Ümumilikdə, 2018-ci ilin yanvarından bəri manatla yeni kreditlər üzrə orta faizlər 5.5 faiz bəndi azalmışdır. Real sektorda pandemiyanın təsiri ilə güclənən risklər faizlərin daha çox azalmasını məhdudlaşdırmışdır.

Cari ildə depozitlərin dollarlaşma səviyyəsi azalmaqda davam etmişdir. İlin əvvəlində pul aqreqatlarına daxil xarici valyutada əmanət və depozitlərin cəmi əmanət və depozitlərdə 54.9% olan xüsusi çəkisi mart ayının yekunu üzrə 56.5%-ə yüksəlsə də, sonradan tədricən azalaraq noyabrda 50.2% təşkil etmişdir. O cümlədən fiziki şəxslərin əmanətlərinin dollarlaşması noyabrın yekunu üzrə 52.7%-dir.

İqtisadiyyatda likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif bazar əməliyyatlarından adekvat istifadə etmişdir. Bank sisteminin likvidlik mövqeyindən asılı olaraq Mərkəzi Bankın sterilizasiya alətlərinə tələb aylar üzrə fərqli olmuşdur. İl ərzində Mərkəzi Bank 62 depozit hərracı və 46 notların yerləşdirilməsi hərracı keçirmişdir. Pandemiyanın təsiri ilə makroiqtisadi sabitlik üzərində yaranmış təhdidlərin qarşısının alınması və valyuta bazarında tarazlığın dəstəklənməsi üçün sterilizasiya portfelinin durasiyası azaldılmışdır. Mərkəzi Bankın təşkil etdiyi hərraclarda II rübdən başlayaraq tələbin təklifi üstələməsi müşahidə olunmuş, bu alətlər üzrə gəlirlilik faiz dəhlizinin aşağı həddinə yaxınlaşmışdır.

Pul siyasətinin effektiv kommunikasiyası 2020-ci ildə də diqqətdə saxlanılmışdır. Cari ildə öncədən ictimaiyyətə açıqlanmış qrafikə uyğun olaraq Mərkəzi Bankın hər bir siyasət qərarı ilə bağlı müvafiq analitik şərhlərlə press-relizləri dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmişdir. Pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi, habelə "Twitter", "Youtube" sosial şəbəkələri vasitəsilə işıqlandırılmışdır. 2020-ci ilin sonunda Mərkəzi Bankın "Facebook" sosial şəbəkəsində də rəsmi səhifəsi yaradılmışdır.

### 1.3. Maliyyə sabitliyi və maliyyə sektorunun inkişafı

*2020-ci ildə maliyyə sabitliyi siyasəti başlıca olaraq maliyyə bazarlarının və sisteminin stabilliyinin təmin olunmasına, pandemiyanın neqativ təsirlərinin minimallaşdırılmasına, əhalinin və biznesin dəstəklənməsinə yönəldilmişdir. Yaranmış vəziyyətə baxmayaraq, maliyyə vasitəçiliyinin genişləndirilməsi və maliyyə bazarlarının dərinləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir.*

Cari ildə bank sektorunun sağlamlaşdırılması istiqamətində radikal addımlar atılmış, maliyyə dayanıqlığını itirmiş 4 bank sistemdən kənarlaşdırılmışdır. Hər dörd bank üzrə əhalinin əmanətlərinin verilməsi əsasən təmin edilmiş, 24 mindən çox əmanətçiyə 615 mln. manat məbləğində əmanət qaytarılmışdır.

Pandemiya ilə bağlı real sektorda yaranmış vəziyyət kredit qoyuluşlarının dinamikasına təsir göstərən əsas amil olmuşdur. Biznes subyektlərinin maliyyə resurslarına əlçatanlığının dəstəklənməsi məqsədilə Mərkəzi Bank bank ictimaiyyətinin nümayəndələri və sahibkarlarla aktiv əməkdaşlıq çərçivəsi yaratmışdır. Bağlanmış banklar nəzərə alınmadan bank sektoru üzrə 11 ayda ipoteka kreditləri 11.9%, biznes kreditləri 1% artmış, istehlak kreditləri isə 4.5% azalmışdır. İlin əvvəlindən bankların sənayeyə kredit qoyuluşu 43.3% artmış və onun biznes portfelində payı 18.4%-dən 26.1%-ə yüksəlmişdir. Bundan başqa, yüksək multiplikativ təsirə malik olan tikintiyə kredit qoyuluşları cari ilin 11 ayında 9.1% artmış və onun portfeldə payı 11.9%-ə çatmışdır.

Fəaliyyətdə olan bankların əsas resurs mənbələrindən olan əhalinin bank əmanətləri bağlanmış banklar istisna olmaqla ilin əvvəlindən dəyişməyərək 7.8 mlrd. manat təşkil etmişdir.

Pandemiyaya qarşı görülmüş sosial təcrid tədbirləri nəticəsində biznesin və əhalinin öz borclarına lazımi səviyyədə xidmət etmək imkanları zəifləmişdir ki, bu da kredit portfelinin keyfiyyətinə təsir göstərir. Bununla belə bankların portfelində problemli kreditlərin payı il ərzində birrəqəmli səviyyədə olmuş və noyabr ayının yekunu üzrə 6% təşkil etmişdir.

Bank sektorunun requlyativ tələbi əhəmiyyətli üstələyən kapital adekvatlığı ödəniş qabiliyyəti olmayan kreditorlardan yaranan itkiləri qarşılamağa kifayət edir. 2020-ci ilin 11 ayında banklar tərəfindən ümumilikdə 116.7 mln. manat məbləğində səhmdar kapital artırılmışdır.

Bank sektorunun likvid aktivləri 9 mlrd. manatdır və bank sistemi üzrə ani likvidlik əmsalı 59% təşkil etməklə, normativi (30%) 2 dəfəyə yaxın üstələyir.

Yaranmış qeyri-müəyyən şəraitə və iqtisadiyyatda resessiyaya baxmayaraq, sığorta sektorunda ilin əvvəlindən başlanmış artım davam edir. Ötən ilin müvafiq dövrünə nəzərən 11 ayda sığorta haqları 9% artmışdır. Sığorta haqları könüllü həyat sığortasında 14%, könüllü qeyri-həyat sığortasında 7%, icbari sığorta növlərində isə bütövlükdə 4% artmışdır. Sığorta sektorunun aktivlərində ciddi azalma müşahidə edilməmişdir. Hazırda sektorun kapital mövqeyi onun yüksək ödəmə qabiliyyətini təmin edir. Dövr ərzində məcmu kapitalı məqbul səviyyədə olmayan 3 sığorta şirkəti mövcud qanunvericilik çərçivəsində görülən nəzarət tədbirləri nəticəsində sektordan kənarlaşdırılmışdır. Sığortaçıların istehlakçılara münasibətdə bazar davranışları ciddi nəzarətdə saxlanmışdır. Sığorta qanunvericiliyinin təkmilləşdirilməsi, onun qabaqcıl beynəlxalq sığorta təcrübələrinə uyğunlaşdırılması, sığorta fəaliyyətinin rəqəmsallaşdırılması, peşəkar kadrların hazırlığı, sığorta istehlakçılarının maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

Kapital bazarının inkişafı, tənzimləmə və nəzarət proseslərinin səmərəliliyinin artırılması üzrə işlər cari ildə də davam etdirilmişdir. Emitentlərin və investorların kapital bazarında iştirak imkanlarının genişləndirilməsi məqsədilə stimullaşdırıcı tarif rejimi yaradılmış və fond birjasında listinqi stimullaşdıran diferensial tariflər müəyyən edilmişdir. Qiymətli kağızlar bazarında istiqraz emissiya etməklə maliyyələşmə imkanlarının genişləndirilməsi üzrə hüquqi baza təkmilləşdirilmişdir. Xarici investorların ölkəmizin kapital bazarına çıxış imkanının artırılması məqsədilə beynəlxalq depozitarlarla əməkdaşlıq davam etdirilmiş, Mərkəzi Bankın IOSCO təşkilatına assosiativ üzvlüyü təmin edilmişdir. 2020-ci ilin 11 ayında keçən ilin müvafiq dövrünə nəzərən ticarət həcmi korporativ qiymətli kağızların təkrar bazarında 1.7 dəfə, repo bazarında isə 1.9 dəfə artmışdır.

Mərkəzi Bank tərəfindən pandemiya dövründə kapital bazarı iştirakçılarının dəstəklənməsi çərçivəsində requlyativ tətillər, habelə emitentlərin və investorların bazarda iştirakını dəstəkləyən tarif güzəştləri verilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin mart ayında imzaladığı müvafiq sərəncama və Nazirlər Kabinetinin təsdiq etdiyi antiböhran planına uyğun olaraq Mərkəzi Bank pandemiyadan təsirlənən əhali, biznes və maliyyə institutları üçün bir sıra tənzimləyici güzəştlər barədə qərarlar qəbul etmişdir.

Bu qərarların icrası çərçivəsində banklar tərəfindən ilin ötən dövründə 50 min borcalanın 1.2 mlrd. manat krediti restrukturizasiya edilmişdir. Restrukturizasiya olunmuş məbləğin 87%-i biznes, 9%-i istehlak, 4%-i isə ipoteka kreditlərinin payına düşmüşdür. Kredit portfelinin restrukturizasiyası Mərkəzi Bankın requlyativ yumşaltma tədbirləri ilə yanaşı, bankların öz təşəbbüsü ilə də aktiv şəkildə aparılmışdır.

Banklar tərəfindən sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərə nağdsız ödənişlər üzrə xidmət haqlarına 50%-dək güzəşt tətbiq edilmişdir. İşsiz kimi qeydiyyata alınan 600 min vətəndaşa birdəfəlik ödənişlərin verilməsi üçün ən qısa müddətdə bank hesabları açılmış və ödəmə kartları təqdim edilmişdir. Bankomatlar qarşısında vətəndaş sıxlığının idarə olunması məqsədilə pensiyalar və sosial yardımların istənilən bankın bankomatından əlavə xidmət haqqı ödənilmədən əldə edilməsi imkanı yaradılmışdır.

Pandemiya şəraiti bank sektoruna, əhaliyə, biznes qurumlarına rəqəmsallaşmanın zəruriliyini bir daha sübut etdi. Cari ildə nağdsız ödəniş infrastrukturundan istifadənin genişlənməsi və banklar tərəfindən təqdim edilən innovativ ödəniş xidmətlərinin çeşidinin artırılması iqtisadi dövriyyənin ağardılması və nağd iqtisadiyyatın daralmasını dəstəkləmişdir. 11 ayda ötən ilin müvafiq dövrünə nəzərən ödəniş kartları vasitəsilə aparılan ölkədaxili nağdsız əməliyyatların həcmi 34%, təmassız ödənişlərin həcmi 5.2 dəfə, internet və mobil bankçılıq üzrə aparılan hesablaşmaların həcmi isə müvafiq olaraq 65% və 90% artmışdır.

**Ardı 23-cü səh.**

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə

# BƏYANATI

*Əvvəli 22-ci səh.*

Əhali, biznes subyektləri, dövlət qurumları arasında ödənişləri müasir dövrün tələblərinə uyğun olaraq məkanından və zamanından asılı olmayaraq 5-10 saniyə ərzində tam başa çatdırılmasına imkan verən və mobil ödəniş həllərini dəstəkləyən 24/7/365 rejimdə fəaliyyət göstərən Ani Ödənişlər Sistemi yaradılmışdır. Eyni zamanda maliyyə xidmətlərinin rəqəmsal əlçatanlığının təmin edilməsi istiqamətində aparılan digər layihə Blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması olmuşdur.

Aprel ayından başlayaraq özünüməşğulluq proqramı çərçivəsində Mərkəzi Bankın təşviqi ilə 21 bank tərəfindən həssas əhali qrupuna daxil olan 591 nəfərə 1.7 mln manatlıq istehsal və ictimai iaşə avadanlıqları, iri və xırdabuynuzlu mal-qara kimi müxtəlif aktivlər təqdim edilmişdir.

Bu proqramın əhatə dairəsinin daha da genişləndirilməsi nəzərdə tutulur.

Kənd yerlərində maliyyə resurslarına çıxışın artırılması məqsədilə Mərkəzi Bank əlaqədar qurumlarla birgə layihəyə başlamışdır. Layihə çərçivəsində kənd təsərrüfatı sahibkarlarının, xüsusən kiçik aqrobiznesin maliyyə xidmətlərinə çıxışının artırılması istiqamətində qabaqcıl təcrübəyə əsaslanan maliyyələşmə mexanizmləri işlənilir.

Real iqtisadiyyatın dayanıqlı maliyyə resurslarına çıxışının dəstəklənməsi məqsədilə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə Mərkəzi Bank arasında 2020-ci ildə maksimal həddi 50 milyon ABŞ dolları olmaqla, ümumilikdə 200 milyon ABŞ dolları məbləğində svop əməliyyatlarının aparılmasına dair razılıq əldə olunmuşdur. Bu günə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə bağlanmış aktiv svop əməliyyatları 18.2 milyon dollardır.

## II. 2021-Cİ İLƏ PUL VƏ MALİYYƏ SABİTLİYİ SİYASƏTİ

*2021-ci ilin pul və maliyyə sabitliyi siyasəti dünyada iqtisadi aktivliyin, qlobal əmtəə və maliyyə bazarlarındakı vəziyyətin perspektivləri ilə bağlı qeyri-müəyyənliklərin yüksək olduğu bir şəraitdə formalaşdırılır. Növbəti ildə də pandemiya ayrı-ayrı ölkələrin iqtisadi dayanıqlıq potensialını sınağa çəkəcəkdir. Risklər başlıca olaraq epidemioloji vəziyyətlə əlaqədar olmaqla xarici və daxili mühitə təsir potensialını saxlayır.*

*Digər tərəfdən Azərbaycan iqtisadiyyatının uzunmüddətli dövrdə aşağı neft gəlirlərinə uyğunlaşması, Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə böyük bərpa və qayıdış işlərinin reallaşdırılması, habelə ölkədə növbəti 10 ildə ikiqat artıma yönələn yeni inkişaf strategiyasının sürətlə realizasiyası ilə bağlı böyük çağırışlar formalaşmışdır.*

*Belə bir şəraitdə 2021-ci ildə makroiqtisadi və maliyyə sektorunun stabilliyinin qorunması makroiqtisadi və makroprudensial siyasətlərin əsasını təşkil edəcəkdir.*

*Mərkəzi Bank makroiqtisadi və maliyyə sabitliyi vasitəsilə pandemiyadan təsirlənən iqtisadi artımın dayanıqlı əsaslarla bərpa edilməsinə dəstək verəcəkdir. Pul siyasəti növbəti ildə də qiymət sabitliyinə fokuslaşmaqla dayanıqlı iqtisadi artım üçün vacib şərtlərin təmin edilməsində mühüm rol oynayacaqdır. Maliyyə sektorunun dayanıqlığının gücləndirilməsi, maliyyə vasitəçiliyinin və maliyyə bazarlarının inkişafı istiqamətində səylər davam etdiriləcəkdir.*

### 2.1. Makroiqtisadi proqnozlar

*Mərkəzi Bank özünün pul siyasətini növbəti ildə də qlobal və daxili iqtisadi meyillər üzrə proqnozları nəzərə almaqla həyata keçirəcəkdir.*

Qüvvədə qalan epidemioloji risklər və dünya iqtisadiyyatındaki ümumi qeyri-müəyyənlik 2021-ci ildə bərpa prosesinin tədrici olacağını göstərir. Ölkələrin və iqtisadi sahələrin adaptasiya imkanlarının fərqliliyi, eləcə də dəyişilmiş mühit şəraitində yeni biznes modellərinin axtarılması da bərpaya təsir edən amil olacaqdır. BVF-nin cari ilin oktyabrında açıqladığı proqnozlara görə, 2021-ci ildə qlobal iqtisadi artım 5.2% olacaqdır. İnkişaf etmiş ölkələr üzrə 3.9%, inkişaf etməkdə olan ölkələr üzrə 6% iqtisadi artım proqnozlaşdırılır. COVID-19 əleyhinə vaksinasiya prosesinin artıq başlaması bu proqnozların reallaşması ilə bağlı nikbinlik yaradır.

İqtisadi aktivliyi dəstəkləmək üçün növbəti ildə də aparıcı ölkələrdə fiskal və monetar siyasətlərin stimullaşdırıcı imkanlarından istifadə ediləcəyi gözlənilir. Dünyanın başlıca güc mərkəzlərində mərkəzi bankların kəmiyyət yumşaldılması siyasətlərinin davam etdiriləcəyi ehtimalı yüksəkdir. Aşağı faiz dərəcələri mühitinin bütün ilboyu davam edəcəyi gözlənilir.

Azərbaycanın ticarət tərəfdaşları olan ölkələrdə iqtisadi artımın 2021-ci ildə 5% təşkil edəcəyi gözlənilir. Mövcud qeyri-müəyyənliklər şəraitində tərəfdaş ölkələrin maliyyə bazarlarında yeni kəskin dəyişkənliklər dalğası istisna olunmur.

Qlobal əmtəə bazarları ilə bağlı da qeyri-müəyyənliklər yüksək olaraq qalır. Müxtəlif əmtəələr üzrə dünya qiymətlərinin fərqli istiqamətlərdə dəyişməsi istisna edilmir.

Son vaxtlarda müxtəlif əczaçılıq şirkətlərinin təhlükəsiz və təsirli COVID-19 peyvəndinin istehsalı istiqamətində irəliləyişləri neft bazarına müsbət təsir göstərib. Yenilənmiş proqnozlar 2021-ci ildə neftə olan gündəlik tələbatın artacağını göstərir. Qeyd olunanları nəzərə alaraq bir sıra analitik mərkəzlər dekabrda 2021-ci ilə neft qiyməti proqnozunu artırmaq istiqamətində dəyişmişlər. Başlıca analitik mərkəzlər üzrə 2021-ci ilə konsensus qiymət 1 barelə görə 48 ABŞ dolları səviyyəsində qiymətləndirilir. Bununla belə təklifin artımının qiymət artımını məhdudlaşdıracağı gözlənilir. Digər tərəfdən pandemiyanın texnoloji innovasiyalara verdiyi təkan da nəzərə alınmaqla neft məhsullarına tələbdə uzunmüddətli azalma meyilinin davam edəcəyi ehtimal olunur.

Pandemiya ilə bağlı təklifin azalması şəraitində dünya ərzaq qiymətlərində cari ildə başlanmış bahalaşmanın davam edəcəyi proqnozlaşdırılır. Dünya Bankının proqnozlarına görə 2021-ci ildə qiymətlərin kənd təsərrüfatı məhsulları üzrə 1.4% artacağı gözlənilir.

Qlobal iqtisadi aktivlikdə bərpa qlobal ticarətin də bərpasına müsbət təsir edəcəkdir. Ümumdünya Ticarət Təşkilatının proqnozuna görə, 2021-ci ildə qlobal ticarətin artım tempi 7.2% təşkil edəcəkdir.

Baza ssenari üzrə proqnozlar növbəti ildə Azərbaycanda xarici və daxili balans göstəricilərinin 2020-ci ilə nəzərən yaxşılaşacağını göstərir.

2021-ci ildə pandemiya ilə vəziyyət, neftin dünya bazarında qiymətinin dinamikası, OPEC++ anlaşmasının perspektivləri, ticarət tərəfdaşlarında gedən proseslər, idxalın dinamikası, Azərbaycanın xarici balansına təsir göstərən əsas amillər olacaqdır.

2021-ci ildə Azərbaycan iqtisadiyyatının real sektorunda iqtisadi aktivliyin tədricən bərpa olunacağı proqnozlaşdırılır. Rəsmi proqnozlara görə, 2021-ci ildə real iqtisadi artım tempinin baza ssenarisi üzrə 3.4%, o cümlədən qeyri-neft sektoru üzrə 3.1% olacağı gözlənilir. Xarici tələbin bərpası prosesinin başlanması, eləcə də təxirə salınmış tələb hesabına daxili tələbin bərpası iqtisadi artımın bərpası proqnozunun əsasında dayanır. Makroiqtisadi sabitliyin qorunması 2021-ci ildə iqtisadi artımın öz potensialına yaxınlaşmasına şərait yaradan əsas amillərdən biri olacaqdır. Kontr-tsiklik makroiqtisadi siyasət və işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin başlanması da 2021-ci ildə iqtisadi artımın əsas drayverlərini canlandıracaqdır. Təqdim edilmiş büdcə layihəsinə əsasən, növbəti ildə dövlət büdcəsi xərclərinin 2020-ci ilə nəzərən 3.8%, o cümlədən əsaslı xərclərin 7.9% artırılacağı proqnozlaşdırılır. Növbəti ildə "fiskal fəza"dan kontr-tsiklik olaraq istifadə olunması makroiqtisadi sabitliyin qorunması baxımından da əhəmiyyətlidir. Ortamüddətli dövrə isə yeni iqtisadi reallıqlar nəzərə alınmaqla yeni makrofiskal çərçivəyə keçid diqqətdə saxlanılmalıdır. Bundan başqa, dövlət büdcəsi kəsirinin mümkün qədər azaldılması və onun dayanıqlı qeyri-inflyasyon mənbələrlə maliyyələşdirilməsi fiskal prioritetlərdən olmalıdır.

2021-ci ildə daxili balans üzrə qeyd olunan proqnozların reallaşması makroiqtisadi siyasətin bütün istiqamətlərinin effektiv koordinasiyasından asılı olacaqdır.

### 2.2. 2021-ci il üzrə pul siyasətinin başlıca istiqamətləri

*2021-ci ildə də pul siyasətinin prioritet məqsədini milli valyutaya inamın başlıca zəmanətçisi olan qiymət sabitliyi təşkil edəcəkdir. İnflyasiyaya təsir imkanlarını gücləndirmək istiqamətində islahatlar davam etdiriləcəkdir.*

2021-ci ildə pul siyasətinin son hədəfi inflyasiyanın 4±2% dəhlizində idarə olunması təşkil edəcəkdir. Əvvəlki illərdə olduğu kimi növbəti ilə də hədəf istehlak qiymətləri indeksinin son 12 ayda dəyişimi olacaqdır.

İnflyasiya hədəfinə nail olmaq üçün pul siyasətinin aralıq hədəfləri olaraq məzənnə, pul təklifi və faiz dərəcələrindən qərarların transmissiya xüsusiyyətləri nəzərə alınmaqla istifadə ediləcəkdir.

Pul siyasəti yürüdülərkən manatın məzənnəsinin inflyasiyaya qısa və ortamüddətli ötürücülüyü diqqətdə saxlanılacaqdır. İstehlakda idxal mallarının əhəmiyyətli paya malik olması məzənnənin başlıca inflyasiya amili olmasını şərtləndirir. Növbəti ildə də valyuta bazarında tarazlıq tədiyə balansının vəziyyətindən, dövlətin valyuta tələbi və təklifindən, habelə iqtisadi subyektlərin məzənnə gözləntilərindən asılı olacaqdır. Zəruri hallarda bundan sonra da valyuta bazarında tarazlığı təmin etmək üçün hökumətlə birlikdə qabaqlayıcı tədbirlər görüləcəkdir. Valyuta tənzimlənməsinin optimallaşdırılması işləri 2021-ci ildə də diqqətdə saxlanılacaqdır.

Digər lövbər olan pul təklifi iqtisadi artım və inflyasiya proqnozları, habelə maliyyə bazarlarında proseslər nəzərə alınmaqla tənzimlənəcəkdir.

Hədəflərə nail olmaq üçün perspektivdə də Mərkəzi Bank bütün alət və mexanizmlərdən adekvat istifadə edəcək, verdiyi siyasət qərarlarının ardıcıllığı və effektivliyini diqqətdə saxlayacaqdır. Pul siyasəti alətləri üzrə kəmiyyət parametrləri növbəti ildə də iqtisadiyyatın likvidlik ehtiyaclarından və maliyyə bazarlarındakı vəziyyətdən asılı olaraq çevik tənzimlənəcəkdir. Pul siyasətinin transmissiya effektini gücləndirmək, habelə pul bazarının aktivləşməsini və gəlirlik əyrisinin formalaşmasını dəstəkləmək üçün əməliyyat prosedurlarının təkmilləşdirilməsi davam etdiriləcəkdir.

Faiz dəhlizinin parametrləri haqda qərarlar makroiqtisadi proqnozlar və risk balansı nəzərə alınmaqla qəbul ediləcəkdir. Pul siyasətinin izafi yumşalmasının mümkün neqativ nəticələri nəzərə alınmaqla risklərin qiymətləndirilməsi zamanı konservativ mövqe saxlanılacaqdır. 2021-ci ilin ilk rübündə inflyasiyaya azaldıcı təsir göstərən amillərin üstünlüyünü qoruyacağı gözlənilir. Bu dövrdə dünya ərzaq qiymətlərində bahalaşma və epidemiya əleyhinə xərclərin artması məcmu tələbin azalması hesabına neytrallaşa bilər. Ortamüddətli dövr üzrə isə məcmu tələbin və beləliklə iqtisadi artımın bərpası inflyasiya proseslərinə təsir edən başlıca amillərdən biri olacaqdır. Manatın məzənnəsinin sabitliyinin qorunması həm qısa, həm də ortamüddətli dövrdə makroiqtisadi sabitliyin əsas lövbəri rolunda çıxış edəcəkdir.

Risk balansını və qeyri-monetar faktorların təsir potensialını nəzərə almaqla inflyasiyanın hədəfdə saxlanılması növbəti ildə də əhəmiyyətli dərəcədə iqtisadi siyasətin bütün istiqamətləri, xüsusilə fiskal və monetar siyasət üzrə effektiv koordinasiyadan asılı olacaqdır. Digər tərəfdən ölkədə həyata keçirilən struktur-institusional islahatlar rəqabət mühitini yaxşılaşdırmalıdır ki, bu da dayanıqlı qiymət sabitliyi üçün əhəmiyyətlidir.

Mərkəzi Bank inflyasiyaya təsir imkanlarının yüksəldilməsi istiqamətində fəaliyyətini 2021-ci ildə də davam etdirəcəkdir. Pul siyasətinin strateji çərçivəsinin təkmilləşdirilməsi, transmissiyada faiz kanalının gücləndirilməsi şərtlərinin realizasiyası xüsusi diqqətdə saxlanılacaqdır. Yeni bank qanunvericiliyi də Mərkəzi Bankın bütün istiqamətlərdə fəaliyyətinin institusional əsaslarını qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırmaqla onun başlıca mandatı olan qiymət sabitliyinə təsirini gücləndirəcəkdir.

Effektiv kommunikasiya və şəffaflığın yüksəldilməsi 2021-ci ildə də diqqətdə saxlanılacaqdır. Kommunikasiyada məqsəd iqtisadi subyektlərdə adekvat gözləntilər formalaşdırmaqla onların davranışına təsir göstərməkdən ibarət olacaqdır. 2021-ci ildə də öncədən ictimaiyyətə açıqlanmış qrafikə uyğun olaraq (Əlavə 1) Mərkəzi Bankın hər bir siyasət qərarı ilə bağlı müvafiq analitik şərhlərlə press-relizləri dərc ediləcək, müntəzəm mətbuat konfransları keçiriləcəkdir. Beynəlxalq səviyyədə mərkəzi banklar üçün qəbul edilmiş şəffaflıq prinsiplərinin tam tətbiqi istiqamətində səylər gücləndiriləcəkdir.

### 2.3. 2021-ci ildə maliyyə sektorunun inkişafının prioritet istiqamətləri

*2021-ci ildə maliyyə sektoru üzrə siyasət maliyyə sabitliyinin qorunması, pandemiyadan təsirlənən iqtisadi subyektlərə dəstək, habelə maliyyə vasitəçiliyinin və bazarlarının dərinləşdirilməsi kimi istiqamətlərə yönəldiləcəkdir. Bütün bunlar maliyyə sektorunun iqtisadi artımda rolunu daha da yüksəltməlidir.*

Maliyyə sabitliyinin qorunması istiqamətində, ilk növbədə, bank nəzarəti çərçivəsinin təkmilləşdirilməsi, risk əsaslı və kontr-tsiklik prudensial tənzimləmənin tətbiqi davam etdiriləcəkdir. Prudensial tənzimləmə çərçivəsi sistem risklərinin önləyici qaydada aşkar edilməsinə və preventiv tədbirlərin görülməsinə imkan verəcəkdir. Kredit təşkilatlarının risklərin idarə edilməsi üzrə daxili potensialının yüksəldilməsi, banklarda korporativ idarəetmə standartlarının tətbiqi üzrə səylər gücləndiriləcəkdir. Beynəlxalq standartlara uyğun requlyativ çərçivə və banklarda təkmil risk idarəetməsi sektorun sağlamlığını dəstəkləyəcəkdir.

Əmanətlərin sığortalanması mexanizminin yeni çərçivəsinə dair yeni strategiyanın 2021-ci ildə reallaşdırılması bank sektoruna etimadı qoruyacaqdır. Strategiya fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləğinin dəyişdirilməsilə yanaşı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin bank hesablarında olan vəsaitlər üzrə kompensasiya məbləğinin müəyyənləşdirilməsini və notariusların depozit hesablarında qalmış fiziki şəxslərə məxsus pul vəsaitlərinin tam məbləğdə sığortalanmasını nəzərdə tutur. Nəzərdə tutulan dəyişikliklər əmanətçilərin mütləq əksəriyyətinin əmanətinin tam qorunmasına, banklarda risk idarəetməsinin təkmilləşdirilməsinə, bazar intizamı və rəqabət mühitinin gücləndirilməsinə, beləliklə bank sisteminin dayanıqlığının və əmanətçilərin mənafelərinin etibarlı qorunmasına imkan verəcəkdir.

Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi sisteminin gücləndirilməsi və əhalinin maliyyə savadlılığının yüksəldilməsi istiqamətində fəaliyyət davam etdiriləcəkdir.

Pandemiyadan zərər çəkmiş iqtisadi subyektlərə dəstək məqsədilə tətbiq olunan requlyativ güzəştlərin zərurət olduqda vaxtının uzadılması və vəziyyətdən asılı olaraq modifikasiyası diqqətdə saxlanılacaqdır. Bu tədbirlər borcalanların maraqlarının müdafiəsinə, kreditləşmənin saxlanılmasına və maliyyə sektorunun stabil fəaliyyətinə istiqamətlənəcəkdir.

Maliyyə-bank sektorunun dərinliyinin artırılması istiqamətində fəaliyyət gücləndiriləcəkdir. Bankların strategiyalarında biznes kreditləşməsinə diqqətin artırılması 2021-ci ildə də təşviq olunacaqdır. Banklararası pul bazarının aktivləşdirilməsi banklar arasında resurs axınının sürətləndirilməsinə və beləliklə biznesin maliyyə resurslarına tələbatının ödənilməsinə xidmət edəcəkdir.

Regionlarda maliyyəyə çıxışın yaxşılaşdırılması xüsusi diqqətdə saxlanılacaqdır. İşğaldan azad edilmiş rayonlarda bank-maliyyə infrastrukturunun yaradılması qayıdış planlarının mühüm tərkib hissəsi olacaqdır.

İpoteka kreditləşməsinin bazar mexanizmləri vasitəsilə genişləndirilməsi ölkədə əmlak-tikinti sektorunun inkişafında mühüm rol oynayacaqdır. Bu istiqamətdə yığım-tikinti bankının yaradılması məsələsinə baxılacaqdır.

Maliyyə inklüzivliyinin genişlənməsi məqsədilə maliyyə xidmətlərinin rəqəmsallaşdırılması və "fintex"lərdən istifadə təşviq ediləcəkdir. Növbəti ildə də nağdsız ödəniş infrastrukturundan istifadə imkanlarının genişləndirilməsi və banklar tərəfindən innovativ ödəniş alətlərinin tətbiqi diqqətdə saxlanılacaqdır.

Sığorta sektorunda effektiv tənzimləmə və nəzarətin gücləndirilməsi, sığortanın əhatəsinin genişləndirilməsi ilə maliyyə bazarlarının digər seqmentlərinin inkişafına əlavə impulslar verilməsi vacib prioritetlərdən olacaqdır. Sektorun maliyyə sabitliyinin, başqa sözlə onun yüksək ödəmə qabiliyyətliyinin daim təmin olunması üçün risk əsaslı tənzimləmə və nəzarət çərçivəsinin qurulması diqqətdə saxlanılacaqdır. Beynəlxalq baza prinsipləri əsasında sığorta qanunvericiliyinin təkmilləşdirilməsi, sığorta sahəsində maarifləndirmə və təbliğat, peşəkar kadr bazasının gücləndirilməsi, sığorta fəaliyyətinin rəqəmsallaşdırılması istiqamətlərində başlanılmış layihələrin icrası geniş miqyasda davam etdiriləcəkdir.

Kapital bazarının inkişafına dair tədbirlər müvafiq strategiya çərçivəsində hüquqi bazanın təkmilləşdirilməsi, müasir bazar infrastrukturunun formalaşdırılması, bazarda iştirakın stimullaşdırılması və nəzarət çərçivəsinin beynəlxalq standartlara uyğunlaşdırılması həyata keçiriləcəkdir. Kapital bazarında hüquqi çərçivənin təkmilləşdirilməsi istiqamətində sekyuritizasiya prosesi, törəmə maliyyə alətləri və repo bazarı üzrə beynəlxalq standartlara uyğun requlyativ çərçivəsinin yaradılması, eləcə də maliyyə vasitəçiliyinin təkmilləşdirilməsi və beləliklə də bazarda yeni və daha mürəkkəb alət və xidmət növlərinin bazara təqdim edilməsi ilə kapital bazarının dərinliyinin artırılmasına dəstək olacaqdır. Kapital bazarında əməliyyat mühitinin təkmilləşdirilməsi üzrə müasir standartlara cavab verən mərkəzləşdirilmiş ticarət sisteminin qurulması, eyni zamanda qiymətli kağızların qeydiyyatı prosesinin elektronlaşdırılması üzrə görüləcək işlər emitentlərin və investorların bazara çıxış imkanının əhəmiyyətli dərəcədə genişləndirilməsini təmin edəcəkdir.

Maliyyə sektorunun modernizasiyası üzrə nəzərdə tutulan irimiqyaslı tədbirlərin həyata keçirilməsi beynəlxalq əməkdaşlıqla hazırlanmış xüsusi proqramlarla təmin ediləcəkdir. "McKinsey" ilə birgə hazırlanan proqram çərçivəsində maliyyə inklüzivliyinin dərin diaqnostikası aparılacaq, müvafiq strategiya və konkret fəaliyyət planı hazırlanacaqdır. Maliyyə sektorunun hərtərəfli və dərin diaqnostikasının aparılması üçün Dünya Bankı ilə FSAP İnkişaf Modulu Proqramı çərçivəsində əməkdaşlığa başlanmışdır. Kapital və sığorta sektorlarının inkişafı üzrə də beynəlxalq ekspertlərin iştirakı ilə spesifik proqramlar hazırlanıb və onların icrasına başlanılıb.

Maliyyə sektorunun başlıca ekosistem problemlərinin həlli üçün hökumətlə sıx koordinasiya təmin olunacaqdır. İqtisadi dövriyyənin ağardılması, makro-fiskal çərçivənin dayanıqlığının gücləndirilməsi, rəqabət mühitinin yaxşılaşdırılması və s. istiqamətlərdə islahatlar maliyyə sektorunun da fəaliyyətinə müsbət təsir edəcəkdir.

### Yekun

*2020-ci ildə həyata keçirilən effektli monetar və prudensial siyasət ölkədə makroiqtisadi və maliyyə sabitliyini təmin etməyə imkan vermiş, bu istiqamətdə cari ilə müəyyən edilmiş başlıca hədəflərə nail olunmuşdur. Aşağı inflyasiya, milli valyutanın alıcılıq qabiliyyətinin qorunması, maliyyə sektorunun bütün seqmentlərində sabitlik və inkişaf cari ilin başlıca nəticələrindəndir.*

*2021-ci ildə də milli iqtisadiyyatda makroiqtisadi sabitliyin daha da dərinləşdirilməsi, iqtisadi artım trayektoriyasına qayıdış və iş yerlərinin bərpası, bu hədəflərin reallaşdırılması üçün ölkədə həyata keçirilən makroiqtisadi siyasətin effektli koordinasiyası diqqət mərkəzində olacaqdır. Maliyyə sabitliyinin qorunması, sektorun bütün seqmentlərində inkişaf və dərin islahatlar, maliyyə dərinliyinin və inklüzivliyinin yüksəldilməsi növbəti ilə maliyyə siyasətinin başlıca prioritetləri kimi müəyyənləşdirilmişdir.*

*Əlavə 1*

**Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki**

2021-ci ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

- 29 yanvar
- 19 mart
- 30 aprel
- 18 iyun
- 30 iyul
- 17 sentyabr
- 29 oktyabr
- 17 dekabr

Qeyd olunan tarixlərdən 29 yanvar, 30 aprel, 30 iyul və 29 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaqdır.

## “Azərsu” ASC daxili vəsaiti hesabına “Azərsu” ASC-nin 2020-ci il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmış maliyyə hesabatlarının audit olunması xidmətlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçıları **https://www.etender.gov.az-** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə və maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 manat**
**Təşkilat: “Azərsu” ASC**
**VÖEN: 9900001751**
**Bank: “Kapital Bank”ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**Bankın VÖEN-i: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *rekvizitlər;*
- *Dövlət Statistika Komitəsindən makro, iri, kiçik və ya orta sahibkar barədə arayış;*
- *lisenziya;*
- *son 3 (üç) ildə kommunal sahə üzrə ən azı 2 (iki) MHBS-yə uyğun hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları hazırlamış olmalıdır (oxşar işi əhatə edən sifarişi əsas podratçı kimi qənaətbəxş şəkildə icra etməsi haqda məlumat).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 yanvar 2021-ci il saat 14:00-a** qədər, tender təklifi və bank təminatını isə **02 fevral 2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **03 fevral 2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti aşağıdakı cədvəldə qeyd olunan göstəricilərə uyğun “Aztelekom” MMC-nin inzibati binası üçün 2 ədəd 800 kVA-lıq dizel generator qurğusu və dizel-generator stansiyası, giriş-paylayıcı qurğusu (GPQ) və elektrik təchizatı sisteminin rekonstruksiyası işlərinin satın alınması üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq təkliflər sorğusu elan edir

Yuxarıda qeyd olunanları nəzərə alaraq, təkliflər sorğusunda iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Təkliflər sorğusunun Əsas şərtlər toplusunu “Aztelekom” MMC-nin Tender komissiyasına (**faiq.mustafayev@aztelekom.az**) müraciət edərək əldə edə bilərlər.

Məlumat üçün bildiririk ki, təkliflərin qiymətləndirilməsində aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi və ödəniş şərtinin qəbul olunması kimi meyarlara üstünlük veriləcəkdir.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri kağız daşıyıcıda qapalı zərfdə möhürlənmiş formada **06.01.2021-ci il saat 17:00-a** kimi aidiyyəti üzrə “Aztelekom” MMC-nin Bakı şəhəri, Tbilisi prospekti, 187 ünvanında yerləşən baş ofisinə təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *təkliflər sorğusu təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının təkliflər sorğusu təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının təkliflər sorğusu təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçıların təklifləri **07.01.2021-ci il saat 11:00-da** açılacaqdır.

Təkliflər sorğusu ilə əlaqədar əlavə suallar yarandığı halda aşağıdakı şəxsə müraciət etmək tövsiyə olunur: Faiq Mustafayev - Satınalmalar üzrə mütəxəssis (**faiq.mustafayev@aztelekom.az**), tel.: (+99412)344-00-00, daxili 3-72.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən LDU-nun “Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 299 ünvanında yerləşən yataqxana binasının yenidən qurulması” işlərinin satın alınması məqsədilə keçirilən açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tender prosedurunun nəticələri haqqında Tender komissiyasının 17 dekabr 2020-ci il tarixli yekun protokoluna əsasən, “Dekor-İnteks” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 24.12.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən “Yumşaq inventar, yataq ləvazimatı və xüsusi geyimlərin alınması” məqsədilə keçirilən Kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 27 noyabr 2020-ci il tarixli yekun protokoluna əsasən, “Tandem-Biznes” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 14.12.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən LDU-nun “Elmi kitabxana binasının əsaslı təmiri” işlərinin satın alınması məqsədilə keçirilən açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tender prosedurunun nəticələri haqqında Tender komissiyasının 17 dekabr 2020-ci il tarixli yekun protokoluna əsasən, “DEKOR-İNTEKS” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 24.12.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Aztelekom” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 14 iyul 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş “Bir illik outstaffing (işçi heyətinin idarəedilməsi üsulu olmaqla, işçiləri Sifarişçi şirkətin sərəncamına verməklə xidmət göstərilməsini nəzərdə tutur) xidmətlərinin satın alınması” üzrə keçirilmiş açıq tender prosedurunun qalibi “CASPİAN CONSOLİDATED SERVİCES” MMC müəyyən edilmişdir.

“Aztelekom” MMC ilə “CASPİAN CONSOLİDATED SERVİCES” MMC arasında 01 noyabr 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən yeni yaradılmış Arxiv və Sosial Ödəniş İşlərinin İnventarlaşdırılması üzrə Mərkəzi Filialı üçün barkod etiketi və arxiv qutularının satın alınması üzrə 11 noyabr 2020-ci il tarixdə elan edilmiş müsabiqə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunun 11.2-ci maddəsinə əsasən, tender predmetinin maliyyələşdirilməsinin dayandırılması ilə əlaqədar ləğv olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 18 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Giriş-çıxışa nəzarət sisteminin, skan proqram təminatının və lisenziyalarının satın alınması üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə əsasən, bu LOT üzrə eTenderin davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 23 dekabr 2020-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə Bakı Metropoliteninin III yeni (Bənövşəyi) xəttinə aid “Xocasən” elektrik deposunda kabel xətləri üçün plastik boru və bağlantıların satın alınmasına dair açıq tender (Elektron) üsulu ilə müsabiqə keçirilmiş və “POLİMART” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 71905,49 (yetmiş bir min doqquz yüz beş manat 49 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən “2 saylı tədris korpusun həyətində 5 mərtəbəli yeni tədris korpusun layihə-smeta sənədlərinin hazırlanması” işlərinin satın alınması məqsədilə keçirilən açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tender prosedurunun nəticələri haqqında Tender komissiyasının 17 noyabr 2020-ci il tarixli yekun protokoluna əsasən, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi Dövlət Baş Layihə İnstitutu “Azərdövlətlayihə” qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 10.12.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən “Digər nəqliyyat xidmətləri” işlərinin satın alınması məqsədilə keçirilən kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 10 noyabr 2020-ci il tarixli yekun protokoluna əsasən, “Azdecor Servis” Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 10.12.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Aztelekom” MMC tərəfindən 22.12.2020-ci il tarixdə elan olunmuş “FO, TPP tipli kabellər və naqillərin” satın alınması barədə elan olunmuş açıq tender proseduru tenderin Əsas şərtlər toplusunda dəqiqləşdirilmələr aparılması məqsədilə ləğv olunur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan” qəzeti redaksiyasının kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədova atası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi komitənin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfova əzizi
**MƏLAHƏT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov həkim-terapevt Məhsəti Abasovaya həyat yoldaşı
**RƏHİM HİLAL OĞLU ABASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsirəddin Tusi adına Klinikanın kollektivi həkim-terapevt Məhsəti Abasovaya həyat yoldaşı
**RƏHİM HİLAL OĞLU ABASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin kollektivi tibb xidməti general-mayoru Elşad Həmidova atası
**BELAL HƏMİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin kollektivi cəmiyyətin sədri Əhməd Əhmədzadəyə əzizi
**KAMAL MUXTARLININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi qabaqcıl təhsil işçisi, dosent
**TACƏDDİN VAHİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə və idarənin kollektivi QMİ-nin Cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi qazı Qəni Axundzadəyə qardaşı, Əməkdar müəllim
**QADİR AXUNDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədova atası
**MƏMMƏD MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xəyyam Məmmədov, Qabil Əfəndiyev, Hüseyn Razıyev, Ənvər Hacıyev və Mansur Orucov
**KAMAL MUXTARLININ**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7368
Sifariş 3007
Qiyməti 40 qəpik